

## Sergey Varonin: “Prezident İlham Əliyev xalqını müharibəyə deyil, Qələbəyə hazırlayıb”

4

# Türk dünyasının birlik arzusunu reallaşdıran Qalib Sərkərdə!



2

Səs
№ 208 (6408) 16 noyabr 2021-ci il. Qiyməti 40 qəpik

# Erməni terrorunun pərdəarxası məqamları



8 TƏHLİL



## Bankların dələduzluq əməlləri, yoxsa çıxarışları?

5



## Daha bir erməni postu ələ keçirildi!

## Tramp otelini 375 milyon dollara satıb



ABŞ-ın keçmiş prezidenti Donald Trampa məxsus "Trump International Hotel"in 375 milyon dollara satılması ilə bağlı Mayamidə yerləşən investisiya şirkəti ilə razılıq əldə edildiyi...

6

## Bu futbolçuya illik 18 milyon avroluq maaş təklif edildi



Almaniyanın "Borussiya" klubu futbolçusu Erlinq Halandı daha bir mövsüm komandada saxlamaq istəyir. Buna görə, Dortmund təmsilçisi norveçli hücumçunun maaşını...

16



## “Moskva Ermənistandan quldur birləşmələrinin qalıqlarının Qarabağdan çıxarılmasını tələb etməlidir”

11

Erməni tərəfindən atılan qumbara bir daha təsdiq edir ki, nə Rusiya sülhməramlıları, nə də Qarabağdakı Azərbaycan...



## Evli cütlüklər niyə boşanır?

12

Bu ilin ilk üç ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 10334 nikah və 3704 boşanma...

# Türk dünyasının birlik arzusunu reallaşdıran

# Qalib Sərkərdə!



## Prezident İlham Əliyevin

### Türk Dünyasının Ali Ordeni ilə təltif olunması bu reallığın göstəricisidir

Azərbaycan-Türkiyə qardaşlığı, birliyi dünyada analoqu olmayan və bu gün Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkliyə çevrilən reallıqdır. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Hər zaman da bu belə olacaq. Prezident İlham Əliyev noyabrın 12-də İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə çıxışı zamanı bildirib ki, İkinci Qarabağ savaşında əldə etdiyimiz Zəfər göstərdiyimiz əzmkarlıq, iradə, rəşadətlə yanaşı bizə güc verən qardaşlıq birliyi oldu: "İkinci Qarabağ savaşında göstərdiyimiz əzmkarlıq, iradə, rəşadət bizi böyük Zəfərə gətirib çıxardı və onu da bildirməliyəm ki, bunu hər kəs görür, bizə əlavə güc verən əziz Qardaşım Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarından başlayaraq son dəqiqələrinə qədər bizə göstərdiyi dəstək və mənəvi dayaqdır. Çünki biz bu dəstəyi hiss edərək, onun sözlərinə qulaq asaraq özümüzü daha da güclü hiss etdik. Çünki hörmətli Cümhurbaşqanı demişdir ki, Azərbaycan bu savaşda tək deyil. Türkiyə Azərbaycanın yanındadır və hər zaman yanında olacaqdır və bu, bizə əlavə güc verdi. Bu, bəzi qüvvələri - Ermənistan himayədarlarını bu savaşdan kənarda tutdu və bizə imkan verdi ki, biz bu şərəfli missiyamızı yerinə yetirək".

**Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır**

Qeyd edək ki, Ulu Öndər Heydər Əliyev dərin tarixi köklərə malik türkdilli dövlətlər və xalqlar arasında sıx əlaqələrin qurulmasına, onların inkişafına hər zaman dəstək göstərib. Dahi rəhbər Azərbaycanın beynəlxalq aləmdə, o cümlədən eyni mədəni və dini köklərə malik türkdilli dövlətlər arasında münasibətlərin ən yüksək səviyyədə qurulmasını, ümumtürk həmrəyliyinin təmin olunmasını prioritet sayıb, daima diqqət mərkəzində saxlayıb. Bu gün bu həmrəyliyin əsasını qoyan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən diplomatik siyasət, regionda irimiqyaslı layihələrin reallaşdırılması türk dünyası ölkələri arasında birliyin, əlaqələrin möhkəmlənməsinə xidmət edir. Həmçinin, sevindirici haldır ki, bu gün Azərbaycan qalib ölkə kimi dünya dövlətləri tərəfindən qəbul edilməklə yanaşı, həmçinin türkdilli dövlətlərlə monolit birliyə malikdir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət diplmatik siyasətinin reallığıdır: "Dörd gün əvvəl Azərbaycan xalqı Qarabağın azad olunmasının birinci ildönümünü sevinclə və qürurla qeyd edirdi. Biz təxminən 30 illik işğala son qoyduq. Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildə qəbul etdiyi və kağızda qaldığı qətnamələri yerinə yetirdik, icra etdik. Tarixi ədaləti bərpa etdik, beynəlxalq hüququ bərpa etdik, milli ləyaqətimizi bərpa etdik. Bu Zəfər tarixi əhəmiyyət daşıyır. Çünki bu, ədalətli müharibə idi. Biz öz torpağımızda vuruşurduq, qan tökürdük, şəhidlər verirdik. Bizim başqa ölkələrin torpağında heç vaxt gözümüz olmayıb və İkinci Qarabağ savaşının nəticələri bunu göstərir. Çünki müharibə dayanan gün artıq bütün atışmalara, bütün xoşagəlməz hallara son qoyuldu. Müharibənin ilk günlərindən mən açıq bəyan edirdim ki, əgər Ermənistan bizə torpaqlarımızdan öz qoşunlarının çıxarılma tarixini, təqvimini verərsə, biz hər an həmin müharibəni dayandırmağa hazırıq və sözümüzə əməl etdik. 44 gündən sonra Ermənistan təslim aktını imzalayaraq o vaxta qədər azad edilməmiş torpaqlardan da özü çıxmağa məcbur olmuşdur və beləliklə, İkinci Qarabağ savaşı başa çatmışdır. 44 gün ərzində döyüş meydanında 300-dən çox şəhər və kəndi işğalçılardan azad etdik və yüzlərlə şəhər və kənd artıq sülh prosesi nəticəsində azad edilmişdir və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir".



Bəli, bu Ali baş Komandan, Prezident İlham Əliyevin diplomatik siyasətinin göstəricisidir. Məhz İkinci Vətən Müharibəsinin 44 gün ərzində 30 il işğalçı Ermənistandan azad olunan torpaqlarımız müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın dövlət başçısına olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi, Türkiyə kimi güclü qardaş dövlətin Azərbaycanın yanında olması və haqq işimizi müdafiə etməsi, həmçinin, bir çox dövlətlər, beynəlxalq təşkilatlar Ali Baş Komandanımız, Prezident İlham Əliyevin son 18 illik Prezidentlik fəaliyyəti dövründə həyata keçirilən xarici siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Və bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir.

Həmçinin, son illərdə Azərbaycanın haqq davası olan Qarabağ məsələsində, həm də əsrlər boyu digər məsələlərdə xarici dairələrin milli kimliyimizə, əqidəmizə, dini inancımıza sərgilədiyi haqsız və sərt mövqe Azərbaycan və Türkiyənin, məhz Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın son illərdə sinxron şəkildə atdığı addımların daha da sürətləndirilməsini şərtləndirdi.

**"Azərbaycan iki illik sədrlik dönəmində türk dünyasının birləşməsi üçün böyük səylər göstərmişdir"**

2019-cu il oktyabrın 15-də Türk Şurasının Bakıda keçirilən VII Zirvə Görüşündə Azərbaycanın təşkilata sədrliyi üzərinə götürməsindən sonra mövcud əməkdaşlıq istiqamətlərinə əlavə olaraq, energetika, səhiyyə, miqrasiya, media, kənd təsərrüfatı, prokurorluq, ədliyyə və humanitar sahələrdə yeni əməkdaşlıq mexanizmlərinin qurulması, Türk Şurasının dünyada nüfuzunun daha da artırılması istiqamətində atdığı addımlar, 2020-ci il aprelin 10-da Prezident İlham Əliyevin təşəbbüsü ilə dövlət və hökumət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş və videokonfrans vasitəsilə təşkil edilmiş ilk beynəlxalq tədbir, burada irəli sürdüyü təşəbbüslər individual olaraq dövlətlər və bütövlükdə təşkilatın özü tərəfindən müsbət qarşılanır və təqdir olunur. Türk Şurasına sədrliyimiz Azərbaycanın 44 günlük Vətən müharibəsində Qələbə qazanaraq öz ərazi bütövlüyünü bərpa etməyə nail oldu.

Ardı Səh. 3

# Türk dünyasının birlik arzusunu reallaşdıran

# Qalib Sərkərdə!

Əvvəli Səh. 2

Prezidenti İlham Əliyev İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə çıxışı zamanı Azərbaycanın bu iki illik sədrlik dönəmində türk dünyasının birləşməsi üçün böyük səylər göstərdiyini deyib: "Azərbaycan iki illik sədrlik dönəmində türk dünyasının birləşməsi üçün böyük səylər göstərmişdir. Bir çox tədbirlər keçirilmişdir. Hesab edirəm ki, biz hazırda daha bütöv, daha birləşmiş şəkildə gələcəyə addımlayırıq".

"Bugünkü Zirvə görüşünün çox böyük tarixi əhəmiyyəti var. İlk növbədə ona görə ki, biz Şuramızı təşkilata çeviririk və bu təşkilatın çox gözəl gələcəyi var. Çünki bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu birliyi diktə edir. Eyni zamanda, indiki dünyada təhlükələr hər ay, hər il yaranır və əfsuslar olsun ki, dünyanın aparıcı ölkələri bu təhlükələrə qarşı düzgün addımlar ata bilmirlər və əminəm ki, Türk Dövlətləri Təşkilatının təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq", - deyə dövlətimizin başçısı bildirib.

Göründüyü kimi, Prezident İlham Əliyevin Türk Şurasına sədrliyi dövründə təşkilatın sıraları genişlənib, dünyadakı nüfuzu artıb. Çünki Prezident İlham Əliyev müasir dünyada cərəyan edən ziddiyyətli və mürəkkəb proseslər, ikili standartlar fonunda Türk xalqlarının birliyinin vahid məqsədlər naminə təmin edilməsinin vacibliyini daim önə çəkməklə yanaşı, konkret addımları ilə onun gerçəkləşməsinə daim çalışan liderdir. Bu gün Türkiyə və digər türkdilli dövlətlər yaxşı başa düşürlər ki, onların Cənubi Qafqaz regionunda ən etibarlı, sınanılmış müttəfiqi yalnız Azərbaycandır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi qərarını Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan prezidentləri imzalayıblar.

### Prezident İlham Əliyev: "Türk Dünyasının Ali Ordeni bütün Azərbaycan xalqına verilmiş mükafatdır"

"Türk Dünyasının Ali Ordeni Qarabağın azad edilməsi işində göstərdiyim səylərə və türk birliyinin daha da güclənməsi işinə töhfələrimə görə verilir. Bu, türk dövlətləri tərəfindən mənim işimə, mənim fəaliyyətimə verilən çox yüksək mükafatdır, yüksək qiymətdir. Buna görə də mən bütün Azərbaycan xalqı adından çox dərin təşəkkürümü bildirirəm. Çünki mən belə zənn edirəm ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə çıxışı zamanı söyləyib.

Ali Ordenə layiq görüldüyünə görə təşəkkürünü bildirən dövlətimizin başçısı deyib: "Bu, mənim üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyətdir. Mənim sevincimi ikiqat edən odur ki, bu Ali Ordeni mənə Türk Şurasına üzv ölkələrin dövlət başçıları təqdim edirlər. Onların imzası ilə və əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə bu yüksək mükafat mənə verilir". Azərbaycan Prezidentinin bu sözləri bir daha onun üçün dövlət və xalq birliyinin mühüm əhəmiyyət daşıdığını göstərir. Prezident İlham Əliyev çıxışında, eyni zamanda, müharibə dövründə və ümumiyyətlə, hər zaman Türkiyə dövlətinin əsl qardaş kimi Azərbaycanın yanında olduğunu dilə gətirib, Azərbaycanın Qələbəyə olan əzminin artmasında qardaş Türkiyənin göstərdiyi dəstək və mənəvi dayağın mühüm rolu olduğunu bildirib. Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan bu savaşda tək deyil. Türkiyə Azərbaycanın yanındadır və hər zaman yanında olacaqdır" sözlərinin xalqımıza nə qədər böyük güc verdiyini xüsusi vurğulayıb.



## Prezident İlham Əliyevin

### Türk Dünyasının Ali Ordeni ilə təltif olunması bu reallığın göstəricisidir

Türk Şurasına sədrliyin Türkiyəyə təhvil verilməsi ilə bağlı hissəsində bir daha Türkiyə Respublikasının bütün türk dünyası üçün aparıcı rolu və qüdrətindən danışarkən Prezident İlham Əliyev bildirib: "Türkiyə son illər ərzində böyük və şərəfli yol keçmiş, dünya miqyasında güc mərkəzinə çevrilmiş və təkcə bölgədə yox, dünya miqyasında söz sahibinə çevrilmişdir... Türkiyənin gücünü indi dünyada bilməyən yoxdur və əziz Qardaşımın liderliyi sayəsində Türkiyənin inkişafı, Türkiyədə sabitliyin təmin olunması bütün türk dünyası üçün önəmli şərtdir. Çünki türk dünyasının mərkəzində dayanan güclü Türkiyə dövlətidir. Bizə, hər birimizə əlavə güc verən Türkiyənin güclənməsidir".

### Mehmet Seyfettin Erol: "Prezident İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunması tarixi Zəfərə verilən yüksək qiymətdir"

"Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) təsis ediləndən bəri təşkilatda fəal təşəbbüskar tərəf olub. Təşkilatın təsisçi üzvlərindən olması sayəsində Azərbaycan qurumun təməl prinsiplərinə və həyata keçirilən proseslərə hakimdir. Azərbaycan ötən iki ildə Türk Şurasına sədrlik edib, bu dövrdə həm COVID-19 pandemiyasına qarşı sistemli mübarizə aparıb, həm də İkinci Qarabağ savaşında böyük Zəfər qazanmaqla hər üç məsələdə fədakarlıq göstərərək istədiklərinə nail olub. Azərbaycan Prezidenti İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunması bütün bu işlərə, qazanılan tarixi Zəfərə verilən yüksək qiymətdir". Bu fikirləri Ankara Böhranlar və Siyasi Araşdırmalar Mərkəzinin (ANKASAM) sədri professor Mehmet Seyfettin Erol bildirib.

Türk Şurasına sədrliyi dövründə Azərbaycanın böyük uğurlar qazandığını, bu sırada Azərbaycan-Türkmənistan əlaqələrinin inkişafında xüsusi yer tutduğunu diqqətə çatdıran professor Mehmet Seyfettin Erol deyib: "Azərbaycan və Türkmənistan Xəzər dənizində "Dostluq" yatağı ilə bağlı tarixi razılığı əldə etdilər. Bu razılaşma Türkmənistan kimi mühüm və dəyərli tərəfin Türk Şurasına sıralarına cəlb olunması ilə nəticələndi. Azərbaycanın bu mövqeyi Türk Şurasının dostluq və sabitlik qurumu olduğunu və sülh bölgəsi yaratmağa çalışdığını dünyaya nümayiş etdirdi".

Mehmet Seyfettin Erol onu da bildirib ki, Qarabağ Zəfəri həm Azərbaycan, həm də türk dünyası üçün dönüş nöqtəsidir: "Çünki 30 il davam edən ədalətsiz və hüquqsuz bir işğal sona çatıb. Bu çərçivədə Azərbaycan ərazi bütövlüyünü bərpa edərək beynəlxalq siyasətdəki imicini yüksəldib. Mübahisəsiz olaraq türk dünyasının ayrılmaz parçası olan Azərbaycanın qazandığı bu hərbi Zəfər bütün türk dünyasının Zəfərdir. Sonrakı mərhələdə siyasət meydanında və diplomatik danışıqlarda əldə olunan uğurlar bu Zəfəri daha da yüksəltdi. Bundan başqa, rəsmi Bakı İkinci Qarabağ savaşının nəticəsi olaraq imzalanan üçtərəfli Bəyanatla Azərbaycanın digər bölgələri ilə Naxçıvan arasında Zəngəzur dəhlizinin açılmasını Ermənistana qəbul etdirib. Zəngəzur dəhlizi isə sadəcə Azərbaycanın iki hissəsini bir-birinə bağlamayacaq, eyni zamanda, Türkiyə-Qafqaz-Orta Asiya coğrafiyasında birbaşa dəhliz olacaqdır. Beləliklə də, türk dünyası ölkələri bir-biriləri ilə birbaşa nəqliyyat əlaqələri quracaqlar. Bununla da Orta Asiya və digər Asiya ölkələri Avropa ilə Zəngəzur dəhlizi vasitəsilə birbaşa əlaqə qurmaqla türk dünyasının geosiyasi, geostrateji, və geoiqtisadi güclərini və əməkdaşlıq imkanlarını artıracaqlar. Azərbaycan vasitəsilə inteqrasiyaya cəlb olunan Türkmənistan həyata keçirilən dostluq və əməkdaşlıq siyasəti sayəsində Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində üzv olub. Bu da öz növbəsində Azərbaycanın Qarabağ savaşındakı haqlı Zəfərinin türk dünyasına bəxş etdiyi ən böyük uğurlardandır".

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin Türkdilli ölkələrin Dövlət Başçıları Şurasının Qərarı ilə "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunması mühüm tarixi hadisə olmaqlı, həmdə dir. Bu, dövlətimizin başçısının böyük şəxsiyyətinə, türk dünyasında tutduğu mövqeyə, liderliyinə, beynəlxalq miqyasda və türkdilli dövlətlər arasında yüksək nüfuz qazanmasına, ən başlıcası isə 30 il işğal altında saxlanılan ərazilərimizin yağı tapdağından azad edilməsini və beləliklə, ərazi bütövlüyünün bərpasını reallaşdıraraq, bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi Zəfərin qazanılmasındakı misilsiz xidmətlərinə verilən layiqli dəyərdir.

Prezident Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısının fəaliyyətinə verilən bu yüksək qiymətlə bağlı bildirib ki, Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə Qarabağda təxminən otuz il davam edən işğala 44 gün kimi qısa bir müddətdə son qoyulub: "Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır. Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilmişdir. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk etmişdir. Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur".

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunması tarixi hadisə olmaqla, həm də dövlətimizin başçısının türk dünyası qarşısındakı xidmətlərinə verilən ədalətli qiymətdir. Bu mükafat Azərbaycan Prezidentinin böyük şəxsiyyətinə, Türk dünyasında liderliyinə, beynəlxalq miqyasda və türkdilli dövlətlər arasında olan yüksək nüfuzuna, ən əsası Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək Türk birliyinə mühüm töhfə verən, bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbənin əldə olunmasındakı misilsiz xidmətlərinə verilən layiqli qiymətdir.

Dövlət başçımızın dediyi kimi: "Türk Dünyasının Ali Ordeni Qarabağın azad edilməsi işində göstərdiyim səylərə və türk birliyinin daha da güclənməsi işinə töhfələrimə görə verilir. Bu, türk dövlətləri tərəfindən mənim işimə, mənim fəaliyyətimə verilən çox yüksək mükafatdır, yüksək qiymətdir. Buna görə də mən bütün Azərbaycan xalqı adından çox dərin təşəkkürümü bildirirəm. Çünki mən belə zənn edirəm ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır".

**RƏFİQƏI KAMALQIZI**

# Azərbaycan Prezidentinin "Türk Dünyasının Ali Ordeni"

## ilə təltif edilməsi ABŞ mətbuatının diqqət mərkəzində olub

**Azərbaycan Prezidenti İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunması ABŞ mətbuatının da diqqət mərkəzində olub.**







AZƏRTAC xəbər verir ki, ABŞ-ın "Medium.com" portalında, "The Washington Outsider News" xəbər agentliyinin saytında və BMT-nin Nyu-Yorkdakı Baş qərargahında fəaliyyət göstərən nüfuzlu "Turkish Journal" informasiya resursunda Ali Ordenin dövlətimizin başçısına noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən təqdim edilməsi barədə geniş məqalələr dərc olunub.

Yazılarda 44 günlük Vətən müharibəsi ilə Azərbaycanın ərazi bütövlüyünü bərpa edərək tarixi Zəfərin qazanılmasında müstəsna rol oynayan, bununla da türk birliyinə misilsiz xidmət etmiş Prezident İlham Əliyevin fəaliyyətindən bəhs olunur. Dövlətimizin başçısının rəhbərliyi ilə 30 ildən sonra Azərbaycanın torpaqlarını işğaldan azad etməsinin türk dünyasında sülhün və ədalətin bərqərar olunmasına zəmin yaratdığı xüsusi vurğulanır. Bununla yanaşı, yazılarda qeyd olunur ki, dövlətimizin başçısına təqdim olunan ali mükafatla bağlı qərar Türkdilli Ölkələrin Dövlət Başçıları Şurasında dörd ölkə liderinin - Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin imzası ilə qəbul olunub.

Xəbərlərdə, eyni zamanda, Prezident Rəcəb Tayyib Ərdoğanın Ali Ordeni Azərbaycan Prezidentinə təqdim edən zaman söylədiyi sözlər də oxuculara çatdırılıb.

Bundan başqa, məqalələrdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyəti, iş prinsipləri, bu günə qədər keçirilən Zirvə görüşləri və qəbul edilən qərarlar haqqında məlumatlar yer alıb. Qeyd edək ki, xəbərlər ingilis dilində yayımlanıb.

## "Prezident İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunması Qələbəmizin böyüklüyünü təcəssüm etdirir"



Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Qarabağın işğaldan azad olunması və türk birliyinin daha da güclənməsi işinə töhfələrinə görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev "Türk Dünyasının Ali Ordeni" ilə təltif edildi. Növbəti digər mühüm məsələ isə öz növbəsində türk dövlətlərini vahid çətir altında birləşdirən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adını dəyişərək "Türk Dövlətləri Təşkilatı" adlanması qurumun funksiyasının genişlənməsinə, daha sistemli və dinamik işin aparılmasına fokuslanmış bir addımdır. Bu gün türk dövlətləri öz qüdrətli dövrlərini yaşayır. Məhz belə bir tarixi şəraitdə üzvlərin birbiri ilə sıx əlaqələr qurması, yaradılmış əlaqələrin genişləndirilməsi, ölkələrimiz arasındakı tarixi dostluq, qardaşlıq prinsiplərinin daha da möhkəmlənməsi həm dövlətlərimizin, həm də regionun maraqlarına geniş şəkildə xidmət edir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev ifadə edib.

O bildirib ki, hazırda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin sayı 7-yə çatıb. Bu da o deməkdir ki, təşkilata böyük maraq var, aparılan sistemli və dinamik iş, əldə edilmiş uğurlar eyni etnik kimliyə məxsus olan xalqların vahid təşkilat ətrafında birləşməsi prosesini olduqca sürətləndirir. Xüsusilə vurğulamaq lazımdır ki, bu təşkilatda təmsil olunan dövlətlərin regionda və dünyada söz sahibi olması təşkilatın sıralarının genişlənməsi ilə şərtləndi. Bir mühüm məqam da ondan ibarətdir ki, Türkmənistan artıq təşkilata müşahidəçi qismində qoşulub, daha əvvəl isə ölkəmizdə təşkil edilmiş Bakı Zirvə Görüşündə Özbəkistan Şuraya üzv olub. Bu gün təşkilatın üzvlərinin sayı 7-dir. Halbuki, 2009-cu ildə Naxçıvan Sazişini dörd ölkə imzalamışdı. Deməli, təşkilatın sıraları genişlənir və üzv olmaq istəyən ölkələrin sayı artır.

"Təkcə bir məqamı qeyd etmək yerinə düşər ki, təşkilatın fəal üzvlərindən biri olan Azərbaycanın Vətən müharibəsi zamanı 44 gün ərzində 30 il düşmən işğalı altında qalmış əzəli və əbədi torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü bərpa etməsi ölkəmizin gücünün, qüdrətinin əyani təcəssümü idi. Xüsusi vurğulamaq lazımdır ki, bu illər ərzində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən qəbul edilərkən dərhal icra olunması nəzərdə tutulmuş qətnamələrin yerinə yetirilmədi, humanitar hüququn tələblərini kobud şəkildə pozan Ermənistan münaqişənin sülh yolu ilə həllini istəmədi. Düşmənin bu cür məsuliyyətsiz davranışının qarşısı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusu tərəfindən alındı və döyüş meydanında düşmənə sarsıdıcı zərbə vuruldu. Qazandığımız tarixi Zəfər təkcə ölkəmizin deyil, eləcə də türk dünyasının, Azərbaycanı sevənlərin qələbəsi idi", - deyə Milli Məclis sədrinin müavini vurğulayıb.

A.Əliyevin sözlərinə görə, təşkilata daxil olan və dünyada çox böyük nüfuza malik qardaş Türkiyənin Vətən müharibəsi başladığı ilk gündən ölkəmizə göstərdiyi mənəvi yardım, eləcə də diplomatik müstəvidə nümayiş etdirdiyi siyasi dəstək hər bir azərbaycanlı tərəfindən böyük rəğbətlə qarşılandı. Qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan bu savaşda tək deyil. Türkiyə Azərbaycanın yanındadır və hər zaman yanında olacaqdır" deməsi ölkəmizə əlavə güc verdi. Eləcə də tarixi torpaqlarımız düşmən işğalından azad edildikdən sonra ərazilərimizin bərpasında ən çox dəstək verən ölkə də qardaş Türkiyədir. Bu baxımdan, regionda söz sahibi olan dövlətlərin bir çətir altında toplanması gücümüzə əlavə güc qatacaq.

## Sergey Varonin: "Prezident İlham Əliyev xalqını müharibəyə deyil, Qələbəyə hazırlayıb"

"Azərbaycan Prezidenti İlham Əliyev ölkəyə rəhbərliyi dövründə Azərbaycan xalqını müharibəyə deyil, Qələbəyə hazırlayıb və bu, daha çox ölkəsinin Silahlı Qüvvələrində apardığı fundamental islahatlara aiddir. Xüsusi təyinatlılardan təşkil edilən 300 nəfərlik qrupların qayalardan qalxaraq Şuşa şəhərinin azad edilməsi üçün döyüşlərə qatılması və bunu heyrətamiz qələbə ilə başa çatdırması bu gün dünyanın ən təcrübəli hərbi ekspertlərini heyrətləndirən müharibə elementidir. Bu, daha çox onunla izah edilir ki, hər bir qələbə əvvəlcə şüurda həkk olunandan sonra hərbi əməliyyatlarda reallaşmalıdır."



Bu fikirləri Dövlət Dumasının Liberal Demokratik Partiyasından deputatı Sergey Varonin Şuşa səfərindən sonra kütləvi informasiya vasitələrinin nümayəndələri üçün təşkil olunan mətbuat konfransında səsləndirib. Rusiyalı deputat Şuşada gördükləri quruculuq işlərinin miqyasından heyrətlərini bildirməklə, qısa müddət ərzində Füzuli aeroportunun tikilərək istifadəyə verilməsini, Şuşaya aparan Zəfər yolunun bir ildən az müddətdə başa çatdırılmasını Azərbaycanında mövcud siyasi iradə və iqtisadi potensialla izah edərək deyib: "Şuşa səfərimizdən gəldiyim ikinci qənaət ondan ibarətdir ki, Qarabağın taleyi həll olunub və münaqişənin ikinci tərəfi olan qüvvə bu geosiyasi reallığı nə qədər tez dərk və qəbul etsə, gələcəyini bir o qədər sığortalaya bilər. Bu isə sərhədlərin demarkasiyası və delimitasiyasından keçir".

Şuşaya getdikləri gün erməni terrorçunun törətdiyi terror aktı barədə danışan Sergey Varonin fikrini bu cür davam etdirib: "Bu hadisə nümayəndə heyətinin Şuşaya çatmasından bir saat sonra baş verdi. Terror aktından sonra Ermənistan tərəfindən belə fikirlər səslənirdi ki, bu, ədalətin bərpasına yönələn addımlardan biridir. Bununla ona görə razılaşmaq mümkün deyil ki, terror mahiyyətinə görə heç vaxt ədalətin yanında olmayıb".

Terror aktının törədilməsi üçün vaxtın seçilməsini təsadüfi hesab etməyən rusiyalı siyasətçi fikrini belə əsaslandırıb: "Onu qeyd etməyi lazım bilirik ki, oxşar hadisələrdə təsadüflər olmur. Bu cür "təsadüfi" əməllər hazırlayıb həyata keçirənlər isə bilməlidirlər ki, onlar öz xalqlarını düzgün istiqamətləndirmirlər. Yol birdir, elan olunmuş yol xəritəsi üzrə sülh müqaviləsi imzalanmalıdır və bu, regionda yeni perspektivlər aça bilər".

## Gürcü politoloq: "Ermənistanın Azərbaycanla sərhəddə və Şuşada törətdiyi təxribatlar terror aktıdır"



Ermənistan silahlı birləşmələrinin Azərbaycanla sərhəddə və Şuşada törətdikləri təxribatlar terror aktıdır. Ermənilərin bu addımı Gürcüstan ictimaiyyətini də ciddi narahat edir. Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü politoloq, Gürcüstanın ART Qalleri Televiziyasının prezidenti Tengiz Txilava söyləyib.

Onun sözlərinə görə, ermənilər tərəfindən Şuşada Azərbaycan və Rusiya hərbçilərinin olduğu nəzarət postuna qumbara atılması, sərhəddə Azərbaycan əsgərlərinin mövqelərinin, digər infrastruktur obyektlərinin, mülki əhalinin atəşə tutulması bir daha göstərir ki, Ermənistan 44 günlük müharibədən lazımi dərs almayıb. Azərbaycan dəfələrlə sülhsevər və ədalətli mövqe nümayiş etdirsə də, Ermənistan öz çirkin niyyətlərindən əl çəkmir. Bu isə daha ağır nəticələr verə bilər. Politoloq diqqətə çatdırıb ki, Ermənistanı birdəfəlik sülhə məcbur etmək üçün daha bir yol var. Rusiya sülhməramlıları qarşı tərəfə layiqli cavab verməlidir. Yəni, Ermənistana ciddi xəbərdarlıq olunmalı və Ermənistan hakimiyyətini terrora qarşı mübarizədə ciddi tədbirlər görməyə vadar etməlidir. Yaxud da geri çəkilməlidir ki, Azərbaycan məsələni birdəfəlik həll etsin. Bunun üçün isə daha bir "Dəmir yumruq" əməliyyatı kifayət edər.

"Bu gün Azərbaycan güclü orduya və dünyada kifayət qədər nüfuza malik olan ölkədir. Türkiyə kimi böyük və güclü tərəfdaşı var. Bu və digər amillər Azərbaycana regionda sülh və sabitlik yaratmağa tam imkan verir", - deyə Txilava vurğulayıb.

***Bir sıra banklardan və yaxud da digər qurumlardan başqa-başqa pul və ya maşın mükafatı olan saxta oyunlar, saxta çəkilişlərin fırıldaqlarına düşməyin nəticələri ciddi ola bilər. Ümumiyyətlə, internet fırıldaqçılarının məqsədi məxfi məlumatları əldə etmək, kompüteri virusa yoluxdurmaq və ya istifadəçinin pulunu ələ keçirməkdir. Xüsusilə də müəyyən bankların adından istifadə etməklə dələduzluq edənlər çoxalıb. Bu kimi saxtakarlıq hallarının bir çox növləri var.***

# Bankların dələduzluq əməlləri, yoxsa çıxarışları?

ARAŞDIRMA



## Bəs bunlar hansılardır?

**1. Saxta dövlət məmuru**

Əgər sizə dövlət məmuru olduqlarını deyən şəxslərdən elektron məktub və ya telefon zəngi gəlirsə və onlar sizi hər hansı platforma vasitəsilə pul yatırmağa yönəldirlərsə və ya link göndərərək məlumat paylaşmağı xahiş edirlərsə, diqqətdən kənarda qoymayın.



Dövlət qurumları heç vaxt sizdən bu yollarla pul qoymağı tələb etməyəcəklər.

**2. Şəxsiyyət oğurluğu, saxta sənədləşdirmə**

Doğum tarixiniz, şəxsiyyət vəsiqənizin seriya nömrəsi kimi şəxsi məlumatlarınıza daxil olaraq, fırıldaqçılar kredit kartı üçün müraciət etmək və ya kredit almaq kimi hərəkətlər edə bilərlər. Tipik olaraq, qurban bir bank və ya kredit kartı şirkətindən şəxsi məlumatları tələb edən bir əlaqə ilə e-poçt alır. Göndərilən e-poçt və link saxtadır, lakin real görünür.

**3. Telefon dələduzluğu**

Fırıldaqçılar zəng edərək şəxsi məlumatlarınızı tələb etməklə özlərini bank və ya kredit kartı şirkəti kimi göstərirlər. Əgər hədiyyə qazandığınızı bildirən link və ya mesaja rast gəlsəniz, bu tələyə düşməyin.

**4. Borc fırıldaqçılığı**

Kredit hesabınız aşağı olsa belə, sizə ilkin ödəniş tələb etmək üçün biznes və ya şəxsi kredit verəcəklərini söyləyən insanlar zəng edə bilər. Onlar həmçinin kredit hesabınızı yaxşılaşdırmaq vədi üçün sizdən ödəniş tələb edə bilərlər. Lakin onlara inanmayın.

**5. Saxta mükafat, lotereya, pulsuz əşya və s.**

Mükafat, hədiyyə və ya lotereya qazandığınız barədə e-poçt məktubu ala bilərsiniz. Deyə bilərlər ki, siz bu mükafatı kiçik bir ödəniş və ya şəxsi məlumatlarınızı daxil etmək qarşılığında ala bilərsiniz. Eynilə, fırıldaqçılar zəng edib lotereyada uddüğunuzu və onların vergisini ödəməklə qazanacağınızı söyləyə bilərlər.

**6. İnternet alış-veriş fırıldaqçılığı**

Onlayn alış-veriş edərkən əvvəlcədən ödədiyiniz məhsul sizə çatmır və yaxud həmin mıhsulun yerinə fərqli məhsul, ya da xarab məhsul göndərilir.

**7. Kompüter dələduzluğu**

Fırıldaqçılar sizin kompüterinizdə texniki dəstək çağırdıqlarını deyərək, sizdə olmayan problemə görə sizdən ödəniş almağa cəhd edə bilərlər.

**8. Təqaüd, təhsil krediti, maliyyə yardımı fırıldaqları**

Ödəniş qarşılığında "vasitəçi təşkilat" tələbələrə təqaüd verən qurum və ya təşkilatlara müraciət etməyi təklif edə bilər. Fırıldaqçılar bu haqqı götürüb qaçırlar və ya qeyri-dəqiq siyahı qoyurlar.

**9. Onlayn tanışlıq saytları**

Fırıldaqçılar özlərini cazibədar kişi və qadın kimi təqdim edərək pula ehtiyacı olduğunu söyləyərək saxta profillər yaradırlar.

**10. Saxta qəbzlər və fakturalar**

Siz real görünən, lakin sifariş etmədiyiniz məhsul və ya xidmət üçün faktura ala bilərsiniz və ya satın aldığınız şirkətdən başqa fırıldaqçılardan həqiqətən satın aldığınız məhsul üçün faktura ala bilərsiniz.

**11. Mesaj fırıldaqçılığı**

Smartfonunuza bankınızdan şəxsi məlumatlarınızı və ya kredit kartı məlumatlarınızı yoxlamağı tələb edən mesaj gələ bilər. Linkə daxil olduğunuz zaman fırıldaqçılar məlumatlarınızı ələ keçirəcəklər.

Qardaş Türkiyədə keçən il mart ayında sosial şəbəkələrdə mükafat, hədiyyə və ya lotereya hüququ qazandıqlarını bildirən bank elanlarını yerləşdirməklə vətəndaşları şirnikləndirdikləri, linklərə kliklәmiş şəxsləri yönləndirməklə zərərçəkmişlərin hesabı və bank məlumatlarının əldə edildiyi üzə çıxıb. Bu məlumatlarla şübhəlilərin digər şəxslərə aid vergi borcları, fakturaları və s. ödəmələri həyata keçirməklə haqsız qazanc əldə etdikləri müəyyən edilib. Martın 3-də yaxalanan 3 şübhəli ədliyyə orqanları tərəfindən həbs edilib.

**Bəs bu cür saxtakarlıq hallarından özünüzü necə qorumalısınız?**



1. Sadə parollardan və cavabını tapmaq asan olan təhlükəsizlik suallarından istifadə edin.

2. Lisenziyalı antivirus proqramlarından istifadə edin və onları mütəmadi olaraq yeniləyin.

3. E-poçt qutusunun təhlükəsizliyini təyin edin.

4. E-poçt və ya mesajlaşma proqramlarında tanımadığı və şübhəli şəxslərin yazılarını və əlavələrini açmayın və ya yükləməyin.

Bütün daxil olan e-poçtları diqqətlə nəzərdən keçirin və keçidlərin ünvanlarını yoxlayın; Saxta bağlantılar çox vaxt simvolların qarışıqlığını və ya yazı səhvlərini ehtiva edir.

5. Tanımadığınız şübhəli nömrələrə SMS göndərməyin.

6. Heç vaxt əmin olmadığınız hər hansı alış və ya hesabı ödəməyin.

7. Parollarınızı, PİN kodlarınızı və digər məxfi məlumatlarınızı heç kimə ötürməyin.

**Bəs məlumatlarınızı fırıldaqçılara itirsəniz nə etməlisiniz?**

1. Əgər pul hesabınızdan qeyri-qanuni çıxarılıbsa, bank kartınızın təcili bloklanmasını tələb edə bilər. Ofisinizə zəng edin və polis bölməsinə müraciət edin.



2. Əgər fırıldaqçılar tərəfindən göstərilən qısa nömrəyə SMS göndərmisinizsə, pulun qaytarılması ilə bağlı mobil operatorunuzla və ya bu qısa nömrəyə xidmət göstərən şirkətlə əlaqə saxlayın.

3. Əgər fırıldaqçı linkə keçmisinizsə, pulsuz antivirus proqramlarından istifadə edərək kompüterinizi viruslara qarşı yoxlayın.

4. Parolunuzu saxta səhifəyə daxil etmisinizsə, onu dəyişdirməyi unutmayın, həmçinin təhlükəsizlik sualını və cavabını dəyişdirin. Virusları yoxladıqdan sonra bu məlumatı dəyişdirmək daha yaxşı olardı.

**Mövzu ilə bağlı SİA iqtisadçı Vüqar Bayramovun fikirlərini öyrənib:** "Bankların adı ilə pul və yaxud maşın mükafatı ilə insanların aldadılması təbii ki, qanunvericiliyə zidd addımlardır. Nəzərə alsaq ki, son dövrlər bankların adından istifadə etməklə müştərilərin bank hesabları ilə bağlı məlumatların əldə edilməsi və bəzi hallarda hesablardan vəsait qanunsuz olaraq çıxarılmasına cəhdlər olur. Çox təəssüf ki, bu tip hallar son dövrlər kifayət qədər geniş yayılıb. Nəticədə vətəndaşa fərqli yerlərdən zənglər gəlir. Halbuki vətəndaşların müştərisi olduğu bankın adından istifadə olunsa belə amma bu real deyil. Əslində bu zənglər bankdan gəlmir. Bu kimi fırıldaqçıların məqsədi vətəndaşlarımızı aldatmaq və gəlir əldə etməkdir. Bu əslində qanunsuz hərəkət olmaqla yanaşı, həmçinin bu cinayət əməlidir. Sözsüz ki, bu kimi hadisələrin iqtisadi cəhətdən ziyanları çoxdur.



Bu kimi hallar bir tərəfdən vətəndaşlara ziyan vurur. Bəzi vətəndaşlarımız aldanır və neçə etibarilə onların vəsaiti məhz həmin dələduzlar tərəfindən praktiki ollaraq mənimsənilir. Bu da vətəndaşların gəlirinə və ailə büdcəsinə ziyandır. Digər tərəfdən bu tip hallar bank sektoru üçün də arzuolunan deyil. Çünki belə olan halda vətəndaşlarla banklar arasında kommunikasiyada müəyyən çətinliklər olur. Bəzi vətəndaşlarımızın xüsusən bu zənglər səbəbindən öz müştərisi olduğu banklarla kommunikasiyada müəyyən inamsızlıq yarana bilər. Ona görə də, bu kimi dələduzluq hallarına qarşı mübarizənin gücləndirilməsi və həmin şəxslərin daha qısa müddətdə öz cəzalarını alması olduqca vacibdir".

**Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Elşad Hacıyev** bildirib ki, bank kartı sahibləri ayrı-ayrı şəxslər tərəfindən "fake", birdəfəlik istifadə və yaxud da internet üzərindən saxta nömrələrlə daxil olan zənglərdən verilən sorğuları birmənalı şəkildə cavablandıramamalı, özlərinəməxsus bank kartı məlumatlarını tanımadıqları şəxslərə ötürməməlidirlər: "Müxtəlif bankların adından istifadə etməklə dələduzluq edənlər var ki, burada birinci növbədə vətəndaş özünə məxsus olan bank kartı məlumatlarını verməməlidir. Bankalara hansısa formada vətəndaşın kart və ya rekvizit məlumatları lazım deyil. Bank zəruri olduğu halda həmin müştərisini banka dəvət edir və orada müvafiq sorğuları öyrənir. Heç bir halda vətəndaşlar şəxsi məlumatlarını ötürməməlidirlər".



**Sosioloq Əhməd Qəşəmoğlu isə bildirib ki, cəmiyyət günü-gündən mürəkkəbləşir, həssaslaşır:** "Bunun nəticəsində də bir çox şeylərə nəzarət etmək və onu idarə etmək çətinləşir. Bu cür fırıldaqçı hallara qarşı ictimai qınaq olmalıdır. Hər birimiz bununla bağlı qəzetlərdə, saytlarda bu kimi fırıldaçı hadisələrdən yazmalıdır. Əvvəla banklar da bu kimi fırıldaqçı hallara qarşı mübarizə aparmalıdır. Bununla yanaşı hüquq-mühafizə orqanları bu kimi hadisələrə qarşı ən sərt tədbirlərdən istifadə etməlidir. Çünki belə adamların çox olması cəmiyyətdə pessimist əhval-ruhiyyə yaradır. Cəmiyyətin özünə qarşı və cəmiyyətin bugünkü vəziyyətinə qarşı xoşagəlməz münasibətlər yaradır. Ona görə də bankların adı ilə dələduzluq edən şəxslərə qarşı tədbirlər görülməlidir, bu cür insanlar ifşa olunmalıdır. Biz çalışmalıyıq ki, Azərbaycan cəmiyyətində fırıldaqçılar çoxalmasın".



***Arzu Qurbanzadə***

ANALİTİK-AKTUAL

# Laçın dəhlizi faktoru: Azərbaycan postunun zəruriliyi artır!

Şuşada, Daşaltı postunda - Rusiya sülhməramlıları kontingentinin (RSK) məsul olduqları ərazidə erməni terrorçusu Norayr Mirzoyanın hərbçilərimizə tərəf əl qumbarası atması və insident nəticəsində hərbçilərimizin yaralanmasından sonra Laçın dəhlizi faktoru yenidən ölkə gündəmində ən çox danışılan mövzulardan biri oldu. Hətta bununla yanaşı, RSK-nın fəaliyyətindəki məsuliyyətsizliklər, daha dəqiq desək, ikibaşlı oyunlar bu mövzunun aktuallığını daha da artırmış oldu. Artıq bir ildən çoxdur ki, Azərbaycan, Rusiya və Ermənistan arasında üçtərəfli bəyanat imzalanıb və həmin bəyanata əsasən İrəvan Bakı qarşısında kaputulyasiyaya uğradığını rəsmən boynuna alıb. O cümlədən, bəyanatda tərəflər arasında razılaşdırılmış bəndlər və müddəalar da qəbul olunub, ötən müddət ərzində onların realizəsi öhdəlik kimi götürülüb.




### Xankəndinin Azərbaycanın yuridiksiyasına keçməsi, Zəngəzur dəhlizinin açılması fonundakı prosesinin gecikməsi, yaxud qəsdən gecikdirilməsi artıq danılmaz fakta çevrilib

Lakin son bir ildə üçtərəfli bəyanatda əks olunan bəndlərə nəinki Ermənistanın, eləcə də Rusiyanın dolayı yollarla əməl etmədikləri haqlı olaraq Azərbaycan ictimai rəyinin hiddətinə səbəb olmaqdadır. Xüsusilə, Xankəndinin Azərbaycanın yuridiksiyasına keçməsi, xalqların inteqrasiyası amili və Zəngəzur dəhlizinin açılması fonunda sözügedən prosesin gecikməsi, yaxud qəsdən gecikdirilməsi artıq danılmaz fakta çevrilib.

Başqa yandan, bu gün Ermənistanda cərəyan edən daxili siyasi prosesləri bəhanə edən və həmin bəhanələr fonunda vaxtı uzadan rəsmi İrəvan digər tərəfdən Rusiyanın dəstəyinə hesablanmış addımlar atır, bu addımların isə Xankəndidəki separatçı-quldur rejimə də sirayət etməsi açıq-aydın görünür.Yəni RSK-nın nəzarəti altındakı Qarabağ bölgələrində hələ də qanunsuz erməni silahlılarının mövcudluğu, Ermənistandan Qarabağa rəsmi şəxslərlə yanaşı, silahlı şəxslərin də daxil olması, silahların keçirilməsi, qondarma rejimin hərbi səfərbərlik elan etməsi, səngərlərin və müdagiə istehkamlarının qurulması, erməni silahlılarının patrul xidməti göstərməsi və s. kimi çoxsaylı faktlar, dəlillər Bakını düşünməyə və qərar çıxarmağa vadar etməkdədir. Çünki bəyanat imzalanıb və qəbul edilmiş qərarlar reallaşdırılmalıdır!

Ancaq daha bir fakt da budur ki, Bakı hər zaman öz vədinə, sözünə sadiqliyini nümayiş etdirib və bundan sonra da etdirəcək, lakin belə görünür ki, İrəvanla Moskva haqqında ümumiyyətlə, bu barədə danışmağa dəyməz.

### Biz görürük ki, Rusiya birmənalı olaraq Ermənistanı dəstəkləyir və əlinə düşən hər imkanında Qarabağdakı separatçı qurumun əlinə oynayır!

Artıq belə bir sual yaranır: Rusiya sülhməramlı kontingenti həmin ərazilərdə baş verən terror əməllərinə niyə göz yumur və belə hadisələri ört-basdır etməyə çalışır? Nəyə görə Azərbaycanın ərazisində cinayət törətmiş biri qanunsuz, tanınmayan, heç bir rəsmi hüququ olmayan bir ”quruma” təhvil verilir? Deməli, ya RSK öz missiyasının öhdəsindən gələ bilmir, ya da rəsmi Moskva bəyanatda qoyulmuş imzasına hörmətsizlik nümayiş etdirir. Hansı ki, Rusiya münaqişənin tənzimlənməsi və başa çatdırılması üçün ortaqlıq mövqeyini sərgiləyib və onun bu məsələdə tərəf tutması, ümumiyyətlə, heç bir çərçivəyə sığa bilməz. Amma biz nəyi müşahidə edirik? Biz görürük ki, Rusiya birmənalı olaraq Ermənistanı dəstəkləyir və əlinə düşən hər imkanında Qarabağdakı separatçı qurumun əlinə oynayır!

Bəli, Ermənistan Rusiyanın diktəsi altında fəaliyyət göstərən KTMT-nin, Avrasiya İqtisadi Birliyinin üzvüdür, ancaq bu, o demək deyil ki, Rusiya beynəlxalq hüquq çərçivəsində tanınan Azərbaycan toraqlarındakı quldur rejimin ”dəyirmanına su tökməlidir”.

### Laçın dəhlizinə də Gorus-Qafan yolunda olduğu kimi Azərbaycan postu yerləşdirilməli və gəlib-gedən hər kəs ciddi şəkildə yoxlanılmalıdır

Bu zaman söz Bakıya düşür və əlbəttə ki, baş verən qanunsuzluqların aradan qaldırılması yönündə ciddi tədbirlərini davam etdirir. Artıq o da məlumdur ki, Laçın dəhlizi vasitəsi ilə erməni silahlılarının Qarabağa sızması faktının qarşısının alınması üçün Azərbaycan tərəfi mütləq adekvat tədbirlər görməli, ermənilərin quldur, işğalçılıq xislətli siyasətlərini davam etdirələri üçün Qarabağa keçdikləri dəhliz ya bağlanmalı, ya da həmin dəhlizdə Azərbaycan Ordusunun postları, yaxud dayaq məntəqələri qurulmalıdır. Belə ki, Laçın dəhlizinə də Gorus-Qafan yolunda olduğu kimi, Azərbaycan postu yerləşdirilməli və gəlib-gedən hər kəs ciddi şəkildə yoxlanılmalıdır.

Qaldı ki erməni terrorçusunun məhz erməni tərəfinə təhvil verilməsinə, bu məsələdə də son sözü əlbəttə ki, Azərbaycan deməlidir. Çünki həmin addım Rusiyanın Azərbaycana qarşı münasibətinin heç də səmimi olmadığını olmadığını göstərir. Halbuki, bir müddət əvvəl Azərbaycan hərbçisi RSK-nın nəzarətində olan əraziyə keçərkən quldur rejimin ”orqanları” onu bir aya yaxın müddətdə özlərində saxladılar və təhvil verədilər. Yalnız Azərbaycan tərəfinin kəskin irad və ittihamlarından sonra o geriyə qaytarıldı. Belə olan halda istər RSK olsun, istərsə də əmrlərini aldığı Moskva-terror hadisəsini törədən erməni Norayr Mirzoyan mütləq qaydada Azərbaycana təhvil verilməli və törətdiyi cinayətini Azərbaycanın ərazisində həyata keçirdiyinə görə də məhz bizim qanunlarımızla mühakimə olunmalıdır. Əks halda, Rusiyanın onsuz da itən etimadı daha da itirilmiş olacaq. Hər halda gec deyil...

*Rövşən RƏSULOV*

# “Azərbaycan xalqı bütün dünyaya sübut etdi ki, o, azad bir xalqdır”

“1988-ci il noyabrın 17-də xalq Bakı şəhərində Azadlıq meydanına toplaşaraq 70 il Azərbaycanı müstəmləkə əsarətində saxlayan Sovet imperiyasına qarşı ilk kütləvi etiraz səsini qaldırdı. Heç vaxt əsarətdə işğalı qəbul etməyən qəhrəman xalqımızın münayəndələri həmin dövrdə yenicə baş qaldıran erməni separatizminə də qarşı mübarizə aparırdı”. Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib. Onun sözlərinə görə, həmin dövrdə Azərbaycanın Qarabağ vilayətində başlamış erməni separatizmini və terrorunu dəstəkləyən, ermənilərin Azərbaycana qarşı torpaq iddialarına rəvac verən, Azərbaycan xalqının hüquq və mənafelərini qorumayan bir rejimə qarşı kütləvi xalq hərəkatı məhz 17 noyabrda başlandı: ”Həmin gün Azərbaycan xalqı bir yumruq kimi sıx birləşərək bütün dünyaya sübut etdi ki, o, azad bir xalqdır. Ermənistanda və Qarabağda azərbaycanlılara qarşı yönəldilmiş soyqırımı Sovet ordusu tərəfindən dəstəklənirdi”.



”Təpədən-dırnağadək silahlanmış erməni quldurları əliyalın, dinc əhalini böyük bir amansızlıqla qətlə yetirirdilər. Təəssüf ki, o zamankı kommunist rəhbərliyi xalqın və vətənin həqiqi mənafeyinin keşiyində dura bilmədi. Bütün bu ədalətsizliklərlə və ərazi bütövlüyünə edilən qəsdlərlə razılaşmayan Azərbaycan xalqı 17 noyabrda ayağa qalxdı. Həmin günlərdə ”Meydan hərəkatı” adını almış bu hərəkatla Sovet müstəmləkə rejimi şəraitində repressiyalara məruz qalmış milli şüur yenidən oyandı, özünüdərkə doğru bir dönüş başlandı”.

Deputat sözlərinə belə davam edib: ”Təkcə Bakıda deyil, respublikamızın bütün şəhər və rayonlarını bürümüş qüdrətli xalq hərəkatı kommunist rejimini Azərbaycandan süpürüb atmaq təhlükəsi yaratmışdı. Xalq geri çəkilmirdi, Ermənistanda və Dağlıq Qarabağda erməni separatçılığına və terrorizmınə son qoymaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, sərvətlərimizin talan edilməsini dayandırmaq kimi tələblərlə başlamış ”Meydan hərəkatı” tezliklə Azərbaycanın müstəqilliyinə çağıran şüarlara keçdi. Meydanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayraqları dalğalandı. Qüvvələr hələ qeyri-bərabər olsa da, bir müddət sonra tarix öz sözünü dedi. Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. 17 noyabr isə xalqın milli-azadlıq hərəkatının başlanğıc günü - Milli Dirçəliş Günü kimi qeyd olunmağa başladı”.

”Azərbaycanın müstəqilliyinin bərpa olunmasında tarixi rol oynamış Xalqın istiqlal mücadiləsinin əsas mərhələlərindən biri olan 17 noyabr - Milli Dirçəliş Günüdür. Mən bu 44 günlük müharibəni məhz 17 noyabr tarixi hadisələrinin davamı kimi qiymətləndirirəm, məhz xalqımızın bir yumruq kimi birləşməsi, 30 ildir doğma torpaqlarımızın 20 faizini işğal altında saxlayan, 28 il ərzində ATƏT-in Minsk qrupunun, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin tələblərinə məhəl qoymayan Ermənistanın silahlı qüvvələrinə qarşı Böyük Vətən savaşında Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı Cənab İlham Əliyevin rəhbərliyi altında Müzəffər Azərbaycan Ordusunun yağı düşmən üzərində zəfəri ilə nəticələndi. Mən, bütün xalqımızı 17 noyabr dirçəliş günü münasibətilə təbrik edir, rəşadətli Azərbaycan Ordusuyla qürur duyduğumu bildirirəm”.

*Ayşən Vəli*

# Tramp otelini 375 milyon dollara satıb



ABŞ-ın keçmiş prezidenti Donald Trampa məxsus ”Trump International Hotel”in 375 milyon dollara satılması ilə bağlı Mayamidə yerləşən investisiya şirkəti ilə razılıq əldə edildiyi bildirilib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Trampın Vaşinqtondakı ailə şirkəti olan ”Trump Organization”ın otelin satışı üçün ”CGI Merchant Group” ilə razılaşdığı bildirilib. Araşdırma zamanı məlum olub ki, Trampın prezidentliyi dövründə otel 70 milyon dollar itirib və xarici hökumətlərdən 3,7 milyon dollar ödəniş alıb.

*Rüqəyya Orucova*

# YAP 29 İL -

## TARİXİ QƏLƏBƏ VƏ ZƏFƏRLƏR PARTİYASI

Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, yarandığı gündən xalqın partiyasına çevrilən, Ulu Öndərimiz Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümünü tarixi bir anlarda - Qarabağımızın 30 ildən sonra 44 gün ərzində Ali Baş Komandanımız, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin diplomatik siyasəti, Müzəffər Ordumuzun, rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində əldə edilən Qələbə günümüzün bir ilinin sevincini yaşadığımız günlərdə qeyd edirik. Məhz bu baxımdan da, bu gün Azərbaycanın son illərdə qazandığı böyük nailiyyətlər Ulu Öndər Heydər Əliyevin yaratdığı və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə bağlıdır. Həmçinin, 29 ilə yaxın şərəfli yolda Azərbaycanın qazandığı uğurların bələdçisi kimi çıxış edən Yeni Azərbaycan Partiyasının VII qurultayının bu il martın 5-də keçirilməsi də böyük tarixi hadisə idi. Çünki bu qurultay birliyimizin, həmrəyliyimizin, partiyanın təsis olunmasından ötən 29 ilə yaxın müddətdə toplanmış tarixi təcrübə ilə gənc nəslin dinamizmi arasında vəhdətin yaradılmasının və bu kimi mühüm addımlar Yeni Azərbaycan Partiyasının daim təkmilləşməyə, yeniləşməyə açıq olduğunu bir daha əyani şəkildə sübut etdi.

### Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası

Hər bir siyasi partiyanın keçdiyi yolun əsaslarına diqqət yetirmək, onun fəaliyyətinin xronikası və dinamikasını tədqiq etmək üçün bir sıra müxtəlif məqamlara toxunmaq lazımdır. Bunlardan biri partiyanın yarandığı şərait, daha dəqiq desək, hansı ictimai-siyasi şəraitdə yaranması və fəaliyyət göstərməsidir. Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasını şəraitin diktəsi ilə meydana gələn tarixi zərurət kimi qiymətləndirərək söyləyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içindən çıxmış zərurətdir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan şəxslərin şəxsi təşəbbüskarlığı ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmışdır".

Həmin vaxt hakimiyyətdə olan AXC-Müsavat liderlərinin bacarıqsızlığı, səriştəsizliyi, naşılığı ucbatından səriştəsiz qüvvələr öz antimilli, yəni milli maraqlardan uzaq siyasətləri ilə Azərbaycanı parçalanma, hətta məhv olma təhlükəsi ilə qarşı-qarşıya qoymuşdular. Belə bir mürəkkəb şəraitdə Azərbaycan xalqı xilası böyük dövlət xadimi və dahi şəxsiyyət Heydər Əliyevdə gördü. Həmin dövrdə Ümummilli lider Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri idi. 1992-ci ilin oktyabrın 16-da 91 nəfər ziyalı "SƏS" qəzetində ümummilli liderimizə müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, "öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir". Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Qeyd edək ki, ulu öndər Heydər Əliyev ziyalılara göndərdiyi cavab məktubu da "SƏS" qəzetində dərc olundu.

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII qurultayında "91-lər"in Ulu Öndərə müraciətinə yönəldərək onların fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Bu gün də onların bir çoxu bizim sıramızdadır. Bundan sonra da onlar fəal işlərlə məşğul olacaqlar, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında fəaliyyət göstərəcəklər və ictimai həyatda fəaliyyət göstərəcəklər. Onları Azərbaycan xalqı unutmamalıdır. Mən Prezident kimi hər zaman onların fəaliyyətini yüksək qiymətləndirirəm. Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular."

Beləliklə, noyabrın 21-də 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyası təsis olundu və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası qısa müddət ərzində təşkilatlandı, xalqın dəstəyi ilə 1993-cü ildə hakimiyyətə gəldi. Bu, xalqın Ümummilli lider Heydər Əliyevə böyük inamının, Onun rəhbərlik etdiyi partiyaya dəstəyinin bariz ifadəsi idi.

Həmin dövrü xatırlayan Prezident İlham Əliyev bildirib ki, 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi hadisə idi. Çünki hamımız yaxşı xatırlayırıq ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçib: "1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaradılması xalqda böyük ümidlər yaratdı ki, nəhayət, xoşagəlməz hallara son qoyulacaq, nəhayət, Azərbaycanda çox ciddi siyasi qüvvə yaranır, nəhayət, Azərbaycanda siyasi sistem yaranır".

Bəli, bu gün 29 il şərəfli yol keçən qələbələr partiyası olan Yeni Azərbaycan Partiyası öz sıralarında 760 mindən çox insanı birləşdirir. Azərbaycanın müstəqillik tarixində qazandığı hər bir uğurunda Yeni Azərbaycan Partiyasının öz dəst-xətti, rolu vardır. Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günlərindən bütün xalqın partiyası oldu. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq özünü Azərbaycana bağlı sayan hər kəs bu partiyada öz yerini gördü. Onun düşüncələrinə, mövqeyinə göstərilən rəğbəti duydu, bu partiyanın arzularındakı siyasi təsisat olduğunu fərq etdi. Yarandıqdan cəmi 7 ay sonra hakim partiyaya çevrildi. Bu hadisənin özü Heydər Əliyev şəxsiyyətinə inamı ifadə etməklə yanaşı, eyni zamanda, partiyanın yaranmasında ifadə olunan tarixi zərurəti və partiyanın yaranması faktına tarixin özünün çox qısa bir zaman keçdikdən sonra haqq qazandırmasını əks etdirirdi. Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günündən özünə aydın vəzifələr müəyyənləşdirdi: dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi. Və bunlar təkcə proqram vəzifələri olaraq kağız üzərində qalmadı. Yeni Azərbaycan Partiyası təmsilçilərindən formalaşmış iqtidar komandası xalqımızın ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək bu gün ölkəmizi tarixinin ən böyük nailiyyətlərinə yetirmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu vəzifələrin hər biri üzrə möhtəşəm nəticələr qazandı.

### Qələbələr, qaliblər partiyası - Yeni Azərbaycan Partiyası

Bəli, Yeni Azərbaycan Partiyası 29 il şərəfli yol keçərək monolitliyini qorudu, gücləndi, öz üstünlüyü, parlaq qələbələri ilə heç bir seçkidə rəqib tanımadı. Yeni Azərbaycan Partiyasının seçkilərdə qazandığı qələbələr bu partiyanın cəmiyyətdəki yerinin möhkəmliyini, dövlətçiliyimizin gücləndirilməsi istiqamətində həyata keçirilən siyasətə xalq dəstəyini, insanların bu təşkilata yüksək etimadını göstərir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanaraq bir daha ölkə vətəndaşlarının Azərbaycan reallığına verdiyi qiymət və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın ifadəsidir. Bu, həm də hər bir vətəndaşın Prezidenti olduğunun göstəricisi, Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması ildən-ilə xalq-iqtidar birliyini göstəricisidir. Məhz bu gün sevinirik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır, qalib gəlir. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə daha müvəffəqiyyətlə həyata keçirilir. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır"".

Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev martın 5-də partiyanın keçirilən VII qurultayında çıxışı zamanı bir çox məsələlər toxunaraq Partiyamızın VII qurultayı ölkəmi-



zin ictimai-siyasi həyatında önəmli hadisə olduğunu bildirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayından üç il ötdüyünü və bu illər ərzində böyük nailiyyətlər və qələbələr əldə olunduğunu deyib: "Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir".

Bəli, bu Qələbə həqiqətən də bizim qürur mənbəyimizdir. Bu realllığı Azərbaycan xalqı görür və bəlkə də bu son 30 ildə bu qədər qürurlu olmamışdı - 44 gün ərzində tariximizin Zəfər Salnaməsi yazıldı, Bütövləşən Azərbaycanımız - Qarabağ Azərbaycanımıza qovuşduq. Məhz bu Böyük Qələbə Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə təsdiqlənməsinin reallığıdır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: "Bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Prezident İlham Əliyev keçirilən qurultayda da bildirib ki, Yeni Azərbaycan Partiyasının adı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. "YAP Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi",-deyən Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin 1970-1980-ci illərin əvvəllərində gördüyü işlərin önəmli olduğunu söyləyib: "Çünki mən bunu dəfələrlə demişəm və partiya üzvləri bunu yaxşı bilir, gənc nəsil də bilməlidir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Heydər Əliyevin fəaliyyətinin nəticəsində 1982-ci ildə isə qabaqcıl yerlərdə idi. Əgər iki respublika donor respublika idisə, onlardan biri də Azərbaycan idi. O vaxt onun gördüyü işlər həm sənaye, həm kənd təsərrüfatı, həm yüngül sənaye sahələrini böyük dərəcədə inkişaf etdirdi, canlandırdı və insanlar o dövrü xatırlayırlar. Bir də ki, Heydər Əliyevin qətiyyəti, cəsarəti, müdrikliyi, xalqla daim təmasda olması, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizəsi haqlı olaraq xalq tərəfindən ona böyük rəğbət qazandırmışdır".

Prezident İlham Əliyev onu da bildirdi ki, son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq: "Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaransın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq".

Prezident, YAP-ın Sədri İlham Əliyev qurultayda geniş, dərin məzmunlu və proqram xarakterli çıxışı zamanı əldə edilən uğurları, aparılan hərtərəfli islahatlardan danışaraq, gələcək fəaliyyətlə bağlı istiqamətləri, konturları göstərdi. Azərbaycanın genişmiqyaslı islahatlar aparan ölkə olduğunu bildirən Prezident İlham Əliyev son 3 il ərzində həyata keçirilən mütərəqqi işləri yüksək qiymətləndirərək partiyanın VII qurultayının keçirilməsi zərurətini yaranmış yeni reallıqların tələbi kimi dəyərləndirdi: "Bu gün sıralarında 760 580 insanı birləşdirən YAP-ın fəaliyyəti, ideyaları, apardığı siyasət göz önündədir. Gələn il yaranmasının 30 illiyi tamam olacaq partiya ötən müddət ərzində uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlib. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil.

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev cənablarının söylədiyi kimi: "YAP sözün əsl mənasında ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Partiyamızın böyük ənənələri var. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq".

***MUXTAR NAĞIYEV,***
***YAP Səbail rayon təşkilatının sədri***

# Erməni terrorunun pərdəarxası məqamları

Ermənistanın dövlət siyasətinin mərkəzində terrorçuluğun dayandığını artıq bütün dünya bilir və heç kim üçün sirr deyil ki, işğalçı ölkənin bir sıra terror təşkilatları uzun illərdir ki, dünyanın bir sıra dövlətlərində terror aktı və təxribatlar törətməklə məşğuldurlar. Şuşa ətrafındakı Daşaltı kəndi yaxınlığında törədilən terror aktı da Ermənistan dövlətinin terrorçu niyyətini, mahiyyətini ortaya qoyur və bu hal, Ermənistan dövlətinin terrorçu siyasət yürütdüyünün göstəricisidir. Ermənistanın bəzi teleqram kanallarında, sosial şəbəkələrin ermeni seqmentində həmin terrorçunun "qəhrəman" kimi qəbul olunması, hətta onun azadlığının tələb olunması isə terrorçuluq siyasətinin bütün ölkədə qəbul olunduğunu və buna adi hal kimi yanaşıldığını təsdiq edir.



Noyabrın 13-də Şuşanın Daşaltı istiqamətindəki girişində yerləşən və Rusiya sühməramlılarının "idarə" etdiyi nəzarət-buraxılış məntəqəsində terrorçu Norayr Mirzoyanın Azərbaycan əsgərlərinə qarşı törətdiyi terror cəhdi ilə bağlı acınacaqlı olsa da, maraqlı məqamları ortaya çıxarır. Bəlli olur ki, bu terror hadisəsi heç də təsadüfi deyil və düşünülmüş, əvvəlcədən planlaşdırılmış şəkildə əyata keçirilməklə yanaşı daha çirkin niyyətlərə, məqsədlərə xidmət edir. Terror aktından təxminən 12 saat öncə VK sosial şəbəkəsinin "Taktika Naemnikov | Voyna i Military Vıjivanie" səhifəsində bir videoçarx yerləşdirilib ki, həmin videoçarxda "RQD-5" hücum əl qumbarasının istifadəsi qaydaları, qumbaranın yerə düşməmiş partlayaraq, daha çox zərər vermək imkanları bildirilib və bu da ondan xəbr verir ki, bu terror aktı kortəbii deyil, öncədən, düşünülmüş şəkildə hazırlanıb.

Maraqlıdır, VK sosial şəbəkəsinin erməni seqmentinə aid "Armenian Military Portal" oxucularının suallarına cavab olaraq izah edir ki, terrorçu Mirzoyan "RQD" əvəzinə "F-1" müdafiə qumbarasından istifadə etsəydi, nəticə daha "xoş" olardı. Təbii ki, xoş olardı dedikdə, nəticənin Azərbaycan əsgərinə daha ağır başa gələcəyi nəzərdə tutulur. Nəzərə alaq ki, "F-1" əl qumbarasının qəlpələrinin saçılma radiusu "RQD-5" kimi 5 deyil, 200 metrə çatır və deməli, terrorun detalları belə nəzərə alınıb, amma terrorçu Mirzoyanın törətdiyi erməni şəbəkəsini qane etməyib. Onlar heç onu da nəzərə almayıblar ki, həmin terroru törətdikləri zaman Rusiya sülhməramlıları da yaralana, ölə bilərdi və belə çıxır ki, məqsəd terrorun törədilməsi olub və bu zaman qardaş dedikləri ruslar belə onların vecinə deyil, hansıki bu, əvvəldən bəlli olan erməni simasızlığıdır. Ən təəssüfdoğurucu məqam ondan ibarətdir ki, "Realist" informasiya agentliyinin (realtribune.ru) şəbəkə resursunun səhifələrində Norayr Mirzoyan məhz "qəhraman" olaraq nümunə göstərilir və onun timsalında təklif olunur ki, bütün erməni fermerlərinə özünümüdafiə üçün silah paylanılsın. Xatırladığımz kimi, Rusiyanın qeyri-rəsmi mediası, eyni ilə 90-cı illərdə olduğu kimi, Qarabağ ermənilərini yenidən "zərərçəkmiş", "yazıq", "məzlum" tərəf kimi qələmə vermək niyyətindədir. Həmçinin bu qeyri-rəsmi Rusiya mediası münaqişədə artıq bağlanmış səhifəni açmaq, sülməramlıların sayəsində "əlavə zaman" əldə etmək, qazanmaq marağındadır. Niyə? Səbəb nədir? Nə qazanmaq istəyirlər və erməni yenidən təxribata sövq etməyin arxasında nələr var? Həqiqətən də məsələnin pərdə arxasında məqamlar gizlənir ki, bunun da səbəbləri, izahı təbii ki, olmalıdır.

Şuşada terror aktını törədən Norayr Mirzoyanın yayılan fotoları onun sıradan biri yox, hərbi hazırlıqlı şəxs olduğunu təsdiqləyir və çox gümün ki, Mirzoyan ASALA-nın, yaxud onun uzantılarının üzvüdür. Yəni, vizual olaraq belə bunu görmək mümkündür. Necə deyərlər, görünən kəndə bələdçi lazım deyil. Ümumiyyətlə, Norayr Mirzoyanın timsalında ermənilərin terror qruplaşmaları ilə birbaşa əlaqədə olduqları istisna deyil və inanırıq ki, bu fikir kimdəsə bir təəccüb belə doğura bilməz, çünki, dünya artıq buna öyrəncəlidir. Onlar təkcə Azərbaycan ərazilərində deyil, dünyanın bir çox ölkələrində, Avropada belə terror aktları törətdikləri də heç kim üçün artıq sirr sayılmır.

Şübhəsiz, belə bir aktın, terror aktının təşkil edilməsi eyni zamanda, ermənilərin bir mesajı kimi də görünür, hansıki, bununla ermənilər azərbaycanlılarla birgə yaşayışın mümkünsüz olması, bu məsələyə ATƏT-in Minsk Qrupu timsalında beynəlxalq təşkilatların cəlb edilməsi mesajını vermək niyyətləri də üzə çıxır. Bildiyimiz kimi, artıq ATƏT-in Minsk Qrupu hansısa bir vasitəçilik, yaxud müdaxilə imkanlarına malik deyil və belə bir terror aktı törədənlər bilavasitə həmin o Minsk Qrupunun da məsələyə cəlb olunması niyyəti güdürlər. Yəni, görüntü yaratmaq istəyirlər ki, guya münaqişə bitməyib və bununla da beynəlxalq təşkilatların bu məsələyə qarışması gündəmə gəlsin. Ən azından, münaqişənin həllini boynuna götürən və 30 ilə yaxın müddətdə bunu uzadaraq heç nəyə nail olmayan ATƏT-in Minsk Qrupunun iştirakını arzulayırlar ki, yenə də müəyyən müddət uzada bilsinlər və əlbəttə ki, bu da bir erməni hiyləgərliyidir.

Sözsüz ki, Rusiya sülhməramlılarının gözü qarşısında hadisələrin bu şəkildə cərəyan etməsi, bir-birinin ardınca terror aktlarının törədilməsi də bir sıra məqamlara aydınlıq gətirir. Bəllidir ki, üçtərəfli danışıqlara uyğun olaraq, rus sülhməramlıları bölgədə təhlükəsizliyin təminatı üçün həmin ərazilərə yerləşdirilibər. Bir tərəfdən baxanda indi həmin ərazilərdə sülhün, təhlükəsizliyin bərqərar olması ruslara heç sərf eləmir, çünki bununla onların işi bitmiş hesab olunur və bu da həmin əraziləri rusların tərk etməsi, bir sözlə, bundan sonra Rusiyanın bölgədə iştirakının olmaması anlamına gəlir. Yəni, ruslar bölgədə mövcudluqlarını qoruyub saxlamaq məqsədi ilə ermənilərin belə terrorçu hərəkətlərinə, vəziyyəti gərginləşdirmək niyyətlərinə ən azından bir növ mane olmurlar. Həmçinin ermənilərin də öz növbələrində rusların bölgədən çıxmamaları üçün dəridən qabıqdan çıxdıqları günün reallığıdır, çünki böyük qardaş hesab etdikləri, hər zaman sığındıqları rusların mövcudluğu fonunda belə davrana biləcəklərini zənn edirlər. Elə məhz buna görə də düşünülmüş şəkildə təxribatlara, terrora əl atırlar ki, bölgədə münaqişənin bitməməsi görüntüsü yaratsınlar və rusların mümkün qədər həmin ərazilərdə çox qalmasına rəvac verilsin. Elə bir görüntü yaratmaq istəyirlər ki, guya bölgədə birgəyaşayışın təmin edilməsi çətin və uzunmüddətli prosesdir və sülhməramlıların bu ərazilərdə qalmasına guya hələ də böyük ehtiyac duyulur.

Son zamanlar baş verən terror aktları təsdiq edir ki, mülki əhalini silahlandırmaq proqramını təqdim edən Araik Arutyunyan da terrorda maraqlıdır. Bir növ, özünü qondarma rejimin rəhbəri hesab edən bu Araikin vəziyyətlə barışmayıb, bunu da inkar etmək olmaz və bunu hər addımında hiss etmək çətin deyil. Nəinki Arutyunyanın, bütövlükdə Ermənistan rəhbərliyinin vəziyyətlə barışmadığı dəfələrlə özünü biruzə verir. Məlum hadisələr, Karapetyanın səfəri, daşnakların Xankəndinə gəlişi, Araikin planı, mülki əhalini silahlandırmaq proqramı terrorçu Mirzoyanın hücumu ilə təzahür edirsə, deməli, Ermənistanın hədəfləri bəlli olur. İndi Ermənistan tərəfi həm də dünya ermənilyinin yenidən "terror fəaliyyətini" aktiv fazaya keçirmək istəyini də göstərir. Bu, bir növ dünya erməniliyinə həmin o terrorçuluq fəaliyyətinə davam edəcəyi niyyətinin anonsu da hesab edilə bilər. Təbii ki, davamlı olan terror aktları, eləcə də Ermənistanın mövqeyi və niyyəti sübut edir ki, rus sülhməramlıları tərəfindən edilməli olan, erməni silahlılarının tərksilah edilməsinin yolu məhz antiterror əməliyyatından keçir və bunu gec-tez özləri də anlamaq məcburiyyətindədirlər. Anlamaq məcburiyyətindədirlər ki, bu cür terror, təxribat hallarına qarşı yanaşma çox sərt olacaq və həmin ərazilərdə Azərbaycanın imkanları kifayət qədər genişdir.

Bir-birinin ardınca ermənilərin törətdikləri terrora Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov da biganə qalmayıb və Şuşada keçirilən mətbuat konfransında o bildirib ki, Şuşa yaxınlığında erməni ekstremisti tərəfindən törədilən təxribat müvafiq qaydada qınaq hədəfinə çevrilməlidir. Qarabağ münaqişəsinin başa çatdığını, Qarabağın Azərbaycan torpağı olduğuna artıq heç kimin şübhəsi olmadığını vurğulayan Markov qeyd edib ki, bu hadisədə əli olanların cəzalandırılmaları vacibdir. Təbii ki, Rusiya Siyasi Araşdırmalar İnstututunun direktoru, cəzalandırılmalıdır dedikdə, kimləri nəzərdə tutduğu bəllidir və o, erməni terrorçuların cəzalandırılmasının tərəfdarı olduğunu birmənalı şəkildə ifadə edir.



Amerikalı ekspert Piter Teys isə öz növbəsində bildirib ki, Ermәni terrorçunun Daşaltı kəndində azərbaycanlı hərbçilərin və rusiyalı sülhməramlıların olduğu posta hücumu misli görünməmiş terror aktıdır. Ekspert vurğulayıb ki, İrəvan administrasiyası tərəfindən



Azərbaycanın günahsız dinc sakinlərinə və Silahlı Qüvvələrinə qarşı təşkil olunan terror aktlarını demokratik dünyada, Avropada, ABŞ-da beynəlxalq subyektlərin mühakimə etməməsi faciəvi faktlardır və beynəlxalq ictimaiyyət bununla mübarizə aparmalıdır. Amerikalı ekspert açıq şəkildə bəyan edib ki, erməni terrorçuluğu Los-Anceles, Paris, Berlin küçələrində belə yayılıb, amma ABŞ və Avropa İttifaqı qanunvericiləri də susqunluğu qorumağa üstünlük verir və İrəvan da cəzasız qalmaqda davam edir, hətta terrorçuluq aktlarının maliyyələşdirilməsi, siyasi dəstək göstərilməsi davam etdirilir. Bəli, həqiqətən də bu belədir və amerikalı ekspertin də vurğuladığı kimi, dünyaya demokratiya dərsi keçməyə qalxan Amerika da, Avropa İttifaqı da erməni hədsizliyinə, qanunsuz hərəkətlərinə, əlalxüsus terror aktlarına müşahidəçi mövqe nümayiş etdirir. Təbii ki, ekspertin qeyd etdiyi kimi, ermənilər cəzasızlıq səbəbindən qanunsuz hərəkətlərinə, törətdikləri cinayətlərə son qoymurlar.

"Nasionalnaya oborona" jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenko isə Şuşadakı mətbuat konfransında qeyd edib ki, Azərbaycanın Şuşa şəhəri



yaxınlığında törədilən terror hücumunun təşkilatçıları və iştirakçıları məsuliyyətə cəlb olunmalı, erməni terrorçusu Bakıya gətirilməlidir. Hərbi ekspert deyib ki, Azərbaycanlı hərbçilərin və Rusiya sülhməramlılarının həyatını təhlükəyə atan bu terror hücumuna dair Paşinyan tərəfindən rəsmi açıqlama gözləyirik. Onun sözlərinə görə, bu hücumun, bu terrorun məqsədi sülhməramlıları Azərbaycan hərbçiləri ilə qarşı-qarşıya qoymaqdır və bu xəstəlik artıq yan fəsadlar verir, hansıki, bu kimi hücumlar, terror və təxribat gələcəkdə də baş verə bilər. Əslində, baş redaktorun fikri ilə tam razılaşırıq və cəzasızlıq səbəbindən bu hadisələr bir daha təkrarlana, daha ağır nəticələrə gətirib çıxara bilər. Doğrudan da bu işlərin qarşısının alınmaması heç də müsbət nəticə vəd etmir və artıq bunun qarşısı alınmalı, miqyasından asılı olmayaraq anti-terror əməliyyatları aparılmalıdır.

Azərbaycan hər zaman beynəlxalq hüquqa hörmətlə yanaşıb. Münaqişənin dinc yolla, siyasi yolla həll edilməsi üçün ölkəmiz az qala 30 ilə yaxın səbr nümayiş etdirib. Torpaqlarının 30 ilə yaxın müddətdə işğalda saxlanmasına rəğmən hərbi əməliyyatlar başladılmayıb, təbii ki, qarşı tərəfin davamlı təxribatları və bir daha əlavə olaraq torpaqlarımızı işğal etmək cəhdlərinə qədər münaqişənin sülh və danışıqlar yolu ilə həllinə çalışıb. Əlbəttə ki, sonda Ermənistan tərəfinin danışıqlara tamamilə etinasız yanaşması, bundan imtina etməsi, yeni-yeni təxribatlara əl atması, torpaqlarımızın digər hissəsini də işğal etmək cəhdləri əkshücum əməliyyatlarını, hərbi əməliyyatları labüd etdi və Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan, cəmi 44 gün davam edən müharibə zamanlı erməni silahlı qüvvələri ölkəmizin qüdrətinə, ordumuzun şücaətinə, xalqımızın birliyinə, həmrəyliyinə, ölkə başçımızın uzaqgörənliyinə, iradəsinə, qətiyyətinə, liderlik keyfiyyətlərinə bir daha əmin oldular. Əmin oldular ki, Azərbaycanla hədə, təhdid dili ilə danışmaq mümkün deyil və bizə məxsus olan torpaqlar ermənilərə verilməyəcək, Azərbaycan xalqı da erməni işğalı ilə barışmayacaq. Bütün dünya isə əmin oldu ki, Ermənistan kimi cılız, səfalət içində olan bir ölkə qüdrətli Azərbaycanın qarşısında dayana bilməz. Təslim olmaq, təslim sənədinə, kapitulyasiya sənədinə imza atmaq məcburiyyətində qalan ermənilər bu məğlubiyyətlərini həzm etməkdə çox çətinlik çəkirlər. Bu gün erməni cəmiyyətində müşahidə olunan qarşıdurmalar, İrəvan küçələrində baş verən çaxnaşmalar da bunun təzahürüdür. Son günlər Ermənistan tərəfindən törədilən təxribatlar, eləcə də terror aktı onu göstərir ki, işğalçı ölkənin daxilindəki vəziyyət hələ də düzəlməyib. Hələ də ermənilər qələbəmizi həzm edə bilmirlər, məğlubiyyətlərinə görə günahkar axtarışındadırlar və dərk edə bilmirlər ki, onları bu vəziyyətə salan özləri, özlərinin yürütdükləri işğalçılıq, terrorçuluq siyasətidir. Ölkə daxilindəki gərginlikdən, siyasi böhrandan diqqəti yayındırmağa çalışanlar, eyni zamanda, Ermənistanda bəzi şəxslər bu cür terror hadisələrindən öz məqsədləri üçün istifadə edirlər. Bu isə öz növbəsində onu göstərir ki, İrəvan bu gün də öz öhdəliklərini yerinə yetirmək iqtidarında deyil və Ermənistanın dövlət səviyyəsində terror siyasəti hələ də davam etməkdədir.

İşğalçı ölkədə vəziyyətin necə olmasından, hansı istiqamətdə davam etməsindən asılı olmayaraq, ermənilər bilməlidirlər və bilirlər ki, Azərbaycan öz ərazisində istənilən vaxt anti-terror əməliyyatları keçirmək hüququnu özündə saxlayır. Hər an erməni terroruna qarşı əməliyyatlara start verilə bilər və 44 günlük savaş təsdiq etdi ki, Azərbaycan Ordusunun, Azərbaycan əsgərinin qarşısını erməni silahlıları, yaxud terrorçuları almaq iqtidarında, gücündə deyillər. Əgər, Azərbaycan 44 gün ərzində Ermənistan silahlı dəstələrini darmadağın edə bildisə, düşmənin hərbi texnikalarını yox həddinə çatdıra bildisə, bu ölkəni diz çökdürdüsə, deməli, diz çökmüş, məğlub bir ölkənin hərhansı terrorçu qruplaşmalarını daha tez zamanda məhv edər və bunu işğalçılar, terrorçular bilməlidirlər.

***İnam Hacıyev***

---

# Yeni Azərbaycan Partiyası yenilikçi partiya kimi nüfuz qazanıb

## Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqları davam edir

**Noyabrın 15-də YAP Xətai rayon təşkilatı Gəncə prospekti 13/1 və Gəncə prospekti 13/2 ünvanlarında yerləşən ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqlarını keçirib. Hesabat məruzələri dinlənilib, çıxışlar əsasında ərazi partiya təşkilatlarının hesabat dövründəki fəaliyyətləri qiymətləndirilib.**

Hesabat-seçki yığıncaqlarında çıxış edən YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə cəmiyyətin avanqard qüvvəsi olan Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümü ərəfəsində olduğumuzu qeyd edərək bildirib ki, xalqın istəyi, zamanın tələbi ilə yaranan partiya fəaliyyət göstərdiyi müddətdə sözlə əməl birliyini qorumaqla, monolitliyi ilə nüfuzunu artırıb, nəinki ölkəmizin, hətta regionun aparıcı siyasi təşkilatına çevrilib: "Dövlətə, xalqa xidməti fəaliyyətinin əsas prinsipi kimi qəbul edən Yeni Azərbaycan Partiyasının qət etdiyi 29 ilə qısa nəzər saldıqda bu reallıq özünü təsdiqləyir ki, onun irəli sürdüyü hər bir təşəbbüs, qəbul etdiyi hər bir qərar dövlətimizin, xalqımızın gələcəyinə xidmət edir. Yeni Azərbaycan Partiyası yenilikçi partiya kimi nüfuz qazanıb. Bir mühüm məqamı xüsusi qeyd etməliyik ki, 2019-cu ilin sonlarında partiya ölkədə geniş vüsət alan islahatların qanunverici orqanda da öz əksini tapması üçün Milli Məclisin buraxılması və növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsü ilə çıxış etdi və bu təşəbbüs xalqımız tərəfindən rəğbətlə qarşılandı. Partiya, eyni zamanda, 2009-cu ildə Kostitusiyaya əlavə və dəyişikliklərin edilməsi üçün ümumxalq səsverməsinin keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Bu kimi addımlar davamlılığı ilə diqqət çəkir. Məqsəd Azərbaycanı daha güclü, qüdrətli dövlətə çevirmək, əhalinin yüksək rifahını təmin etməkdir. Yeni Azərbaycan Partiyasının bu ilin martında keçirilən VII qurultayı da Zəfərimizin yaratdığı yeni reallıqlara əsaslandı. Yeni qərarlar qəbul olundu, qarşıdakı dövr üçün prioritetlər müəyyənləşdi. Dövlətimizin başçısı İlham Əliyev VII qurultayda bu inamı ifadə etdi ki, YAP-ın böyük ənənələri var. YAP bundan sonra da ölkəmizdə gedən bütün uğurlu proseslərin mərkəzində olacaq".





V.Rəhimzadə Azərbaycanın uğurlarının zirvəsində dayanan tarixi Zəfərimizdən geniş bəhs edərək yaranan reallıqların diktə etdiyi vəzifələrin icrasında partiyanın hər bir rayon və şəhər təşkilatının üzərinə böyük məsuliyyət düşdüyünü bildirib. Qeyd edib ki, YAP Xətai rayon təşkilatı fəaliyyətini daha da genişləndirir, 16 mindən artıq üzvün hər biri uğurlarımıza öz töhfəsini verməyə səy göstərir. Sonra hesabat-seçki yığıncaqlarında təşkilati məsələlərə baxılıb.

Aidə Hüseynzadə Gəncə prospekti 13/1 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Zərifə Hacıyeva sədr müavini, Gülnarə Həsənova Gəncə prospekti 13/2 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Şəhla Əsgərova isə sədr müavini seçiliblər. YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə yeni tərkiblərə fəaliyyətlərində uğurlar arzulayıb.

---

# "Paris görüşü ermənilərin arzuladıqları kimi başa çatmadı"

"Ermənistan ordusunun Kəlbəcər istiqamətində törətdiyi təxribat, N.Mirzoyanın terror aktı nəticəsində bir neçə hərbçimizin yaralanması ermənilərin nə qədər ağır durumda olmasının, çarəsizlikdən hər yola əl atmalarının göstəricisidir. Çünki Azərbaycan səbrlə, ardıcıl addımlar atmaqla öz mövqelərini möhkəmləndirir. Gorus-Qafan yolunun bir hissəsinin nəzarətimizə götürülməsindən sonra ciddi problemlərlə üzləşən erməniləri Qafan-Çakaten yolunda gömrük postunun qoyulması xəbəri daha da ümidsizləşdirmiş, proseslərin bundan sonra da onların maraqlarının ziddinə gedəcəyi qənaətini möhkəmləndirmişdir". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib. Onun sözlərinə görə, Ermənilərin böyük ümidlə gözlədiyi Minsk Qrupu həmsədrlərinin Paris görüşü də arzuladıqları kimi başa çatmadı və bu barədə danışan S.Lavrov qrupun yaxın dövrdə humanitar məsələlərin həlli, xalqlar arasında etimadın möhkəmlənməsi üçün şəraitin yaradılması ilə məşğul olacaqlarını söylədi: "Bu Minsk Qrupunu əvvəlki dövrdəki kimi "kreativ" olmağa çağıran Azərbaycan Prezidenti İlham Əliyevin bir qədər əvvəl söylədiklərinin sözbəsöz təkrar olunması idi. Təbii ki, Qarabağın "statusu" barədə növbəti bəyanat gözləyən ermənilər üçün bu ağır zərbə oldu. Onlar əmindirlər ki, növbəti zərbəni bu günlərdə keçiriləcək üçtərəfli danışıqlarda alacaqlar və həmin görüşdə erməniləri qətiyyən qane etməyən qərarlar qəbul olunacaq. Bütün bu baş verənlər son illər diplomatik üstünlüyü əlində saxlamağa uğursuz cəhdlər edən erməniləri ağılsız addımlar atmağa, vəziyyətlərini daha da pisləşdirən hərəkətlər etməyə zorlayır. Hər dəfə bundan istifadə edən hərbçilərimiz əlavə mövqelər ələ keçirir, düşmənin vəziyyətinin bir az da ağırlaşmasına nail olurlar. Bu dəfə də belə olacaq. Sərhəddə baş verən gərginlik, Şuşada törədilən terror aktı ermənilərə əlavə problemlər yaradacaq və Azərbaycanın mövqelərini həm ərazidə, həm də danışıqlar prosesində daha da gücləndirəcəkdir".

***Gülyana***



# Tarixi qərarlar türk dövlətlərini daha sıx birləşdirəcək

Türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılmış Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılmasından 12 il ötür. Naxçıvanda qəbul edilən qərarlarla türk dünyasının birliyi daha da möhkəmlənib və yeni inkişaf mərhələsinə yüksəlib. Ölkələr arasında əməkdaşlıq daha da genişlənib. Son iki il ərzində Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etdiyi dövrdə türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa öz töhfəsini verib. Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə Şuraya sədrliyi öz üzərinə götürən zaman Azərbaycan Prezident İlham Əliyev bildirmişdi ki, biz var gücümüzlə çalışacağıq ki, növbəti bir il ərzində təşkilatımız daha da güclənsin və qarşıda duran bütün vəzifələr uğurla icra edilsin: "Azərbaycanın təşkilata sədrliyi dövründə ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə əməkdaşlığın daha da dərinləşməsi istiqamətində səylərini davam etdirəcək".



Azərbaycanın təşkilat çərçivəsində siyasi və təhlükəsizlik məsələləri sahəsində əməkdaşlığı uğurla davam etdirmiş oldu. Azərbaycan sədrlik dönəmində türk dünyasının birləşməsi üçün böyük səylər göstərmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, bu gün dünyanı bürüyən pandemiyaya qarşı biz birgə cavab verdik: "Keçən ilin aprel ayında videokonfrans şəklində Zirvə Görüşü keçirilmişdir və bizim təşkilatımız həm üzv ölkələr bir-birinə kömək göstərirlər, başqa ölkələrə kömək göstəririk".

2020-ci il türk dünyası məhsuldar, Zəfər ili olaraq yadda qaldı. Belə ki, türk dünyasının önəmli uğurları, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi əhəmiyyətli hadisədir. Azərbaycan tərəfi məsələnin sülh yolu, danışıqlar masasında həll edilməsi istiqamətində addımlar atmış olsa da, Ermənistan faktiki olaraq danışıqlardan imtina etmiş və ölkəmiz döyüş meydanında öz sözünü deyərək Zəfər qazandı. Müzəffər Azərbaycan ordusu və onun Sərkərdəsi Cənab İlham Əliyev tariximizə yeni bir gün yazdı. "Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, müharibə dövründə 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi", deyən Cənab Prezident bildirib ki, bizim tarixi şəhərimiz Şuşa noyabrın 8-də işğalçılardan azad edildi və Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə edərək Türkiyənin Azərbaycanın yanında olmasını ifadə etdi. Türk Şurası sentyabrın 28-də Azərbaycana dəstək xarakterli açıqlama verdi. Eləcə də digər beynəlxalq təşkilatlar - Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycana siyasi dəstək göstərdilər. Qeyd edək ki, bu gün türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü dünyada türk birliyinin daha da güclənməsinə şərait yaradır. Naxçıvan sazişinin imzalanmasından keçən 12 il ərzində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib.

## "TÜRKİYƏNİN İNKİŞAFI, TÜRKİYƏDƏ SABİTLİYİN TƏMİN OLUNMASI BÜTÜN TÜRK DÜNYASI ÜÇÜN ÖNƏMLİ ŞƏRTDİR"

Məlumdur ki, cari ilin martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal keçirilən Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bu ilin sonunda Azərbaycan Türk Şurasındakı sədrliyini qardaş Türkiyəyə təhvil verəcəyini bildirmişdir. Bu, belə də oldu. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Azərbaycan Prezidenti çıxışında "Bu şərəfli missiyanı Türk Şurasındakı və bundan sonra Türk Dövlətləri Təşkilatındakı sədrlik müddətini artıq əziz Qardaşım Rəcəb Tayyib Ərdoğan öz üzərinə götürür" deyə bildirib: "Əminəm ki, onun liderliyi ilə bizim ölkələrimiz arasındakı birlik, həmrəylik, qarşılıqlı hörmət və məhəbbət əsasında qurulmuş əlaqələr daha da möhkəmlənəcək və türk dünyasının lideri olan hörmətli Cümhurbaşqanının bu işdə uğur qazanacağına heç şübhəm yoxdur". Bu gün dünya miqyasında Türkiyənin siyasi, iqtisadi, hərbi gücü ilə tanınır. "Türkiyənin inkişafı, Türkiyədə sabitliyin təmin olunması bütün türk dünyası üçün önəmli şərtdir", - deyən Cənab Prezident bildirib ki, türk dünyasının mərkəzində dayanan güclü Türkiyə dövlətidir: "Bizə, hər birimizə əlavə güc verən Türkiyənin güclənməsidir və buna görə hər birimiz əziz Qardaşıma minnətdar olmalıyıq".

## "BİZİM TƏŞKİLATIMIZ QARŞIDA DURAN BÜTÜN VƏZİFƏLƏRİ İCRA EDƏCƏKDİR"

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü bir sıra əlamətdar hadisələr, qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, "Türk dünyasına baxış - 2040" sənədinin qəbulu ilə bağlı Qərar, "Türk dünyasının birliyinə verdiyi töhfələrə görə" Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına Beynəlxalq Mükafatı haqqında Qərar, Türk Dövlətləri Təşkilatında müşahidəçi status haqqında qaydalara dair Qərar və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır. Cənab Prezident Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünün tarixi əhəmiyyətinə toxunaraq bildirib ki, biz Şuramızı təşkilata çeviririk və bu təşkilatın çox gözəl gələcəyi var: "Çünki bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir. Eyni zamanda, indiki dünyada təhlükələr hər ay, hər il yaranır və əfsuslar olsun ki, dünyanın aparıcı ölkələri bu təhlükələrə qarşı düzgün addımlar ata bilmirlər və əminəm ki, Türk Dövlətləri Təşkilatının təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq. Çünki bizim işbirliyimiz səmimidir, biz hamımız qardaşıq, bir-birimizə qardaş deyirik, biz hamımız ənənəvi dəyərlər üzərində ölkələrimizi inkişaf etdiririk".

*Nəzakət ƏLƏDDİNQIZI*



# Baydenin "Demokratiya" Zirvəsi, ya illustrativ seçim menyusu?

**EKSPERT RƏYİ**

"Bayden rəhbərliyinin demokratiya sammiti haqqında təfərrüatlar uzun müddət dövrə vurduqdan sonra məlum oldu. Avtoritarizmə qarşı müdafiə, korrupsiya ilə mübarizə və insan hüquqlarının təşviq edilməsi kimi məsələlərin ümdə tutulması məqsəd olsa da dəvət olunan ölkələrin siyahısı məlum edir ki, bu məqsədlər öz maraqlarını təmin etməkdən başqa bir şeyə istiqamətlənməyib. Belə ki, məqsədlər daha çox təqibin, müdaxilə mexanizminin gücləndirilməsindən ibarətdir. Hansı ölkələrin hansı kriteriyalar üzrə dəvət olunduğu mexanizmi də kölgəlidir, bulanıqdır. Sammit demokratiyanın geniş yayılması kimi banal ifadələr istehsal etsə də daha çox istiqamətləndirmək, güc tətbiq etmək, yönləndirmək üçün "yaxşı işlər" görəcək". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.



Politoloqun sözlərinə görə, demokratiyaya dəstəyi ABŞ prezidenti Co Bayden xarici siyasət strategiyasının konseptual mərkəzi kimi müəyyənləşdirdiyini ifadə etsə də bu vədindən tamamilə uzaqdır: "Bunun üçün sentyabr ayında Ukrayna prezidenti Vladimir Zelenski ilə görüşdən sonra verdiyi bəyanata nəzər salmaqda fayda var ki, nə qədər ikibaşlı siyasət yürütdüyünü əyani anlamaq mümkün olsun: "Ukraynanın uğuru demokratiya və avtokratiya arasında qlobal mübarizənin mərkəzidir". Bu cümlə vasitəsilə sətiraltı çox şey deyilir və çox şey başa düşülür: Üzdəki mesaj ABŞ-ın maraqlarının demokratik dəyərlər baxımından müəyyən edilə biləcəyi və bu dəyərlərlə avtokratiya arasındakı mübarizənin qlobal əhəmiyyət kəsb etdiyi olsa da, əslində isə sikkənin digər üzü ABŞ-ın müəyyən bir ölkədəki maraqlarının bu geniş və manipulyativ kontekstdən və məfhumdan istifadə edilərək mühakimə oluna biləcəyindən, ya da təmin edilə biləcəyindən ibarətdir. Yəni, demokratiya məfhumu ABŞ üçün manipulyativ termindir ki, istədiyi zaman onun maraqları kontekstində izah olunan bir hadisə, siyasi alət vasitəsi qismində çıxış etsin. Prezident Franklin Ruzvelt və Böyük Britaniyanın Baş naziri Uinston Çörçill 1941-ci ildə Atlantika Xartiyasını imzaladıqdan sonra ABŞ-ın xarici siyasət düşüncəsi qaydalara əsaslanan beynəlxalq nizamın təməli kimi demokratiyaya dəstək kommunizmdən faşizmə, terrorizmə, zorakı ekstremizmə və etno-millətçiliyə qarşı çağırışlara cavab olaraq keçib. Buna baxmayaraq Birləşmiş Ştatlar qlobal miqyasda demokratiyanı dəstəkləməkdə qeyri-ardıcıl və bəzən hətta ikiüzlü olsa da, bu çağırışlara əks getsə də Bayden isə xarici siyasət gündəmində demokratiyanı bu qədər ön plana çıxaran ilk ABŞ liderindən olduqca uzaqdır. Bir müddət ABŞ-da demokratiya və onun üzərində qurulan universal hüquqların yüksələn xətt üzrə inkişafı meyli görünsə də Bayden tamamilə manipulyasiya edə biləcəyi, parçalanmış dünya istəyir. Buna görə Baydenin demokratiyaya vurğu etməsi sadəcə ritual təlqin deyil, həm beynəlxalq, həm də ABŞ-ın mübahisəli siyasət yeritdiyindən xəbər verir. Bayden komandası yəqin ki, artıq "yaxşı ideyaları" praktiki siyasətə çevirməyin çətin olduğunu da kəşf etməmiş deyil. Belə ki, ABŞ-ın Əfqanıstan və İraqdakı uğursuzluqları bizə xatırlatmalıdır ki, məcburi rejim dəyişikliyi və yuxarıdan aşağı dövlət quruculuğu demokratiyanın təşviqi gündəminə daxil deyil".

Ekspert qeyd edib ki, demokratiya bəzəmək üçün dekorativ vasitə yox, insanların problemlərini həll etmək üçündür: "Türkiyə və Macarıstan kimi bəzi ölkələr demokratiya sammitinə guya illərdir demokratik sistemləri sarsıtdığı üçün dəvət edilmirlərsə zirvəyə ev sahibliyi edən ölkə kimi Birləşmiş Ştatlar bütün "müəssisənin" etibarlılığını təmin etmək üçün öz çatışmazlıqlarını da ciddi şəkildə həll etməlidir. Bayden administrasiyası özünü demokratik standartların hakimi kimi təyin etmək əvəzinə, demokratiyasındakı qüsurlarının həllində maraqlı olmalıdır. Məsələn, səslərin hesablanması və sertifikatlaşdırma prosesini partizan manipulyasiyadan azad saxlamaq kritik və aktual problemdir - irq əsasında seçicilərin sıxışdırılmasının uzun müddət davam edən mirasına toxunmaq kimi. Daxildə azad və ədalətli seçkiləri təmin edə bilməyən onların əhəmiyyətini daim xaricdə səsləndirən ölkə üçün bu heç də uğurlu imic deyil. Baydenin öz ölkəsində artan demokratik problemlərin fonunda ABŞ demokratiyasını "canlandırmaq" cəhdi ilə çağırılan demokratiya sammiti böyük ironiyadır, çünki onun məqsədi sadəcə olaraq digər ölkələri sıxışdırmaq, dünyanı müxtəlif düşərgələrə bölməkdir, bu bir növ "parçala, hökmranlıq et" siyasətindən xəbər verir. Demokratiya Baydenin patenti deyil və onu Bayden müəyyən edə bilməz. Bayden demokratiyası geniş yanaşma tələb edən, demokratik dəyərləri yayan əsil demokratiya deyil, mürəkkəb manipulyativ şəbəkəni əks etdirən demokratiyadır. Belə olmasa idi demokratiyanı laxladıb ya da tamamilə sökük atıb bəzi ölkələrin dinc siyasi, ictimai nizamına son qoysa da, yenə də və hələ də öz demokratik modellərini başqa ölkələrə sırımağa çalışmazdı. Dünya aydın gördü ki, ABŞ-ın son illərdəki, Suriyanı, Yəməni, İraqı, Liviyanı Yaxın Şərqin başqa müsəlman ölkələrini demokratiyaya "qərq etmək" niyyəti qanla, fəlakətlə nəticələndi".

Ş.Həsənova vurğulayıb ki, demokratiya sammiti demokratiyaların beynəlxalq məsələlərə yanaşma tərzində iqtisadi və təhlükəsizlik maraqları ilə yanaşı, insan ləyaqəti və azadlığı ilə bağlı dərindən qorunan dəyərlərin də yer aldığına, həm də qlobal ictimai rifahla bağlı məsələlərə dair də güclü bir mesaj göndərə bilərdi: " O zaman sual olunur: Sammitin keçirilməsi, demokratik dəyərələrin təşviqidir, ya oturuşmuş rəqiblərə, xüsusən də Çin və Rusiyaya, ya da digər dövlətlərə siqnal göndərmək üçün vacibdir? Demokratiya sammitinin siyahısı Bayden administrasiyasının illustrativ seçim menyusudur. Belə ki, terroru dövlət səviyyəsində dəstəkləyən Ermənistanın "demokratiya sammitinə" dəvət alması fonunda, Macarıstanın, sizin demokratiya kriteriyanızdan kənara çıxaraq itaətkar, sorğu-sualsız boyun əymədən siyasət yürüdən Azərbaycanın və Türkiyənin dəvət almaması sammitə dəvət alanların hansı kriteriya ilə seçildiyi haqqında aydın təsəvvür yaradır. Ya da vaxtilə qan tuluğuna saldığınız İraq dəvət olunan bir neçə ölkə arasında öndədir, terrorizmə, separatçılığa, nizamsızlığa dövlət səviyyəsində mübarizə aparan NATO tərəfdaşı Türkiyə kimi müttəfiq siyahıda yoxdur? Bu nə ikiüzlülük, "demokrat" Bayden?".

*Aysel Məmmədova*

# Nikoldan nə desən gözləmək olar...

**Yaxşı ki, rusların arasında da ermənilərə təsəlli verib, onlara "canıyananlıq" nümayiş etdirənlər varmış. Yoxsa "başı bəlalar çəkmiş" bu "binəva millət" neylərdi?**

**Deməli, ötən gün ermənilərin "halına yanan" rus hərbçisi Konstantin Sivkov bildirib ki, əgər, doğrudan da, Ermənistan ərazisində real hərbi əməliyyatlar başlasa və Azərbaycan "erməni ərazisini" işğal etməyə qalxsa, bu halda Rusiya Kollektiv Təhlükəsizlik Müqaviləsinə əsasən ölkəni müdafiə etməli olacaq. O bunu da əlavə edib ki, ermənilər buna heç şübhə etməsinlər.**

Bununla yanaşı o, Rusiyanı açıq qarşıdurmaya sürükləmək məqsədi daşıyan təxribat variantının mövcudluğunu da istisna etməyib. Qeyd edək ki, Sivkov burada təxribatla bağlı fikirlərini bildirərkən, təbii ki, bir müddət bundan əvvəl Ermənistanın baş naziri Nikol Paşinyanın guya Azərbaycan qoşunlarının erməni sərhədlərini "yararaq" ölkə ərazisinə daxil olduğunu nəzərdə tutur.

Sivkova görə, əgər Azərbaycan qoşunları, həqiqətən də, Ermənistan ərazisini "işğal edibsə", bu halda Ermənistan hökuməti rəsmi şəkildə KTMT-yə müraciət edib Rusiyadan kömək istəməlidir.

Əslində, Sivkova da əksər həmkarları kimi, ermənilərin hansı xislət sahibi olduqları barədə az-çox məlumatlıdır və bəlkə də erməniləri onlardan da yaxşı tanıyır. Ona görə də, o Azərbaycan-Ermənistan sərhədində dəqiq nə baş verdiyini və hansı ərazidə baş verdiyini anlamaq lazım olduğunu öyənməyi məsləhət bilir.



Qeyd edilməlidir ki, Nikol Paşinyanın əvvəlki həmkarlarından ancaq bir şeylə, "ABŞ-a qarşı ittiham olunan" fiqur olması ilə fərqləndiyini diqqətə çatdıran Sivkov burada onun Rusiyanı da münaqişəyə qatmaqda maraqlı olduğunu gizlətmir. Belə bir ssenari yaşanmasının şəxsən Baş nazirin özü üçün faydalı olacağına şübhə etməyən rus hərbçisi, ölkəsinin bu hərbi münaqişəyə qatılacağı təqdirdə Nikolun bundan Ermənistanın daxili iqtisadi uğursuzluqlarını silməyə çalışağağını da yaxşı anlayır.

***Ağasəf Babayev***

# "Moskva Ermənistandan quldur birləşmələrinin qalıqlarının Qarabağdan çıxarılmasını tələb etməlidir"

**Erməni tərəfindən atılan qumbara bir daha təsdiq edir ki, nə Rusiya sülhməramlıları, nə də Qarabağdakı Azərbaycan hərbçiləri kürəklərindən erməni terrorçularının xəyanətkar bıçaq zərbələrindən sığortalanmayıb.**

Millətlərarası münaqişələr üzrə rusiyalı ekspert Yevgeni Mixaylov "Caliber" analitik mərkəzinə belə deyib.



Xatırladaq ki, noyabrın 13-də saat 07:12-də Xankəndi-Laçın avtomobil yolunda Ermənistan Respublikası sakini, 1975-ci il təvəllüdlü Norayr Mirzoyan Şuşa şəhəri ətrafındakı Daşaltı kəndi yaxınlığında xidmət edən Azərbaycan hərbçilərinə RQD-5 əl qumbarası atıb, həm də Rusiya sülhməramlılarının olduğu yerdə.



"Bu hadisə göstərir ki, ərazilərin erməni terrorçularından təmizlənməsi üçün hələ çox iş görülməlidir, onların çoxu qondarma "dinc və imkansız" sakinlər sırasına daxil olub. Üstəlik, demək istəyirəm ki, bu, ilk dəfə deyil rus hərbçilərinin arxasında gizlənən erməni separatçıları əldə edilmiş bütün razılaşmaları pozurlar. Bununla bağlı tədbir görülməlidir və nə qədər tez olsa, bir o qədər yaxşıdır. Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərdə qeyri-qanuni separatçı birləşmələrin yerləşdiyi vəziyyət nə qədər davam edərsə, bir o qədər də təxribat törədiləcək və ölənlər olacaq.



Düşünürəm ki, bu iş 2020-ci il noyabrın 10-dan dərhal sonra getməli olanların tərksilah edilməsinin sürətləndirilməsinə gətirib çıxaracaq. Bundan əlavə, vəziyyət daha da pisləşəcək, xüsusən də, rəsmi İrəvanın Qərbə daha çox rəğbət bəsləməyə çalışması və İrəvanda Rusiya əleyhinə nümayişləri açıq şəkildə dəstəkləməsi fonunda",- Yevgeni Mixaylov bildirib.

Rusiyalı ekspertin fikrincə, rəsmi Moskvanın reaksiyası kifayət qədər sərt və məzmunlu olmalı, Ermənistan tərəfinə bu cür hadisələrlə bağlı barışmaz mövqeyini bildirməlidir.

"Bundan başqa, Moskva Ermənistandan Qarabağdakı sülhməramlıların məsuliyyət zonasında olan ərazilərdən separatçı quldur birləşmələrinin qalıqlarının çıxarılmasına dair razılaşmaların yerinə yetirilməsini tələb etməlidir",- deyə ekspert yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# "Ermənistan təxribatlar törətməklə konkret məqsədlər və hədəflər güdür"





"Ermənistan silahlı qüvvələrinin son günlər həm Qarabağ ərazisində, həm də Azərbaycan ilə sərhəddə törətdikləri təxribatlar, cinayətlər təsadüfi deyil. Bunlar Ermənistan hakimiyyətinin düşünülmüş, konkret hədəflərə hesablanmış addımlardır". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Aydın Quliyev deyib. Onun sözlərinə görə, hər şeydən əvvəl bəllidir ki, Ermənistanın həm Qarabağ ilə təmas xəttində, həm Ermənistan sərhədində, həm də Kəlbəcərdə, Laçında, Şuşa yaxınlığında törətdikləri hərəkətlər, hadisələr regionda sülhə, təhlükəsizliyə birbaşa təhdiddir: "Bu beynəlxalq hüququn və humanitar prinsiplərin aşkar şəkildə pozulması hadisələridir. Ermənistan bu kimi təxribatlar törətməklə hazırki şəraitdə dediyim kimi konkret məqsədlər və hədəflər güdür. Bu təxribatların, cinayətlərin ümumtürk inteqrasiyası proseslərinin dərinləşdiyi bir hadisələrlə eyni vaxtda düşməsi heç də təsadüfi deyil. Bəllidir ki, Azərbaycanın fəal iştirakı ilə türk dövlətləri arasında inteqrasiya prosesləri getdikcə dərinləşir və güclənir. Artıq bu proses qarşısı alınmaz və ümumtürk dövlətləri birliyini mütərəqqi bir proses kimi yüksəltməyə doğru aparır. Hətta bu gün artıq heç bir şübhə yoxdur ki, türk dövlətləri arasında inteqrasiya prosesi bu dövlətlərin yaxın gələcəyin ən güclü dövlətlər birliyi halına gətirə bilər. Həmçinin də mütərəqqi mənada bu prosesin dərinləşməsi həm türk dövlətlərinin özünə, həm də bu dövlətlərlə yaxşı münasibətdə olan ölkələrə çox böyük gələcək vəd edir. Belə bir şəraitdə türk dövlətləri inteqrasiyasını pozmaq, ona maneəçilik törətmək, Orta Mərkəzi Asiyanın, Azərbaycanın və Türkiyənin iştirakı ilə türk dövlətləri arasında inteqrasiya prosesinin daha da dərinləşməsinin qarşısını almaq üçün Ermənistan hökuməti və onların arxasında dayananlar bölgəmizdə yeni-yeni gərginlik ocaqlarının yaradılmasında maraqlıdırlar. Buna görə də müətmadi şəkildə Azərbaycan ilə sərhədlərdə və Qarabağ ərazisində yeni-yeni cinayətlər və təxribatlar törətməklə bölgədə davamlı sabitliyin yaranmasına imkan verməək istəmirlər. Bu nöqteyi-nəzərdən bizim sərhədlərimizdə, ərazilərimizdə ermənilərin törətdiyi son təxribatlar onların türk inteqrasiyasına qarşı hesabladığı bir addım kimi nəzərdən keçirtmək lazımdır".

Aydın Quliyev fikirlərinə davam edərək həmçinin qeyd edib ki, artıq dünya yaxşı başa düşür ki, Qafqazda sabitlik olmasa, həm Mərkəzi Asiyanın, həm Azərbaycanın iştirakı ilə Avropanın enerji təhlükəsizliyinin tam şəkildə təmin olunmasına zəmanət vermək çətin olacaq: "Ona görə də Ermənistana aşkar şəkildə təzyiq göstərməyə başlayıblar ki, Azərbaycanın sülh müqaviləsinin formatının alternativi yoxdur. Çünki bu bölgədə davamlı, dayanıqlı və hərtərəfli sülhün təmin olunmasının sülh sazişi imzalamaqdan başqa bir şərtini düşünmək qeyri-mümkündür. Ermənistan da görür ki, ona qarşı müəyyən təzyiqlər var. Artıq belə bir şəraitdə imzalanması gözlənilən yekun sülh sazişinin qarşısını almaq və bu prosesi təxirə salmaq üçün bölgələrdə, xüsusilə də Qarabağda və Azərbaycanın sərhəd bölgələrində daima yeni-yeni gərgin vəziyyət yaratmağa çalışırlar. Digər tərəfdən müəyyən qüvvələr qondarma DQR deyilən qurumun statusu ilə bağlı müzakirəni Minsk qrupu formatı çərçivəsində yenidən aktuallaşdırmağa çalışırlar. Belə şəraitdə Ermənistan sərhəddə və təmas xətlərində gərginlik hadisələrinin sayını artırmaqla bu bölgədə hələ də gərginliyin qaldığını göstərməyə cəhd edirlər. Qeyd etdiyim kimi Ermənistanın gərginlik yaratmaq hərəkətlərinin arxasında məhz konkret hədəflər dayanır".

***Arzu Qurbanzadə***

ARAŞDIRMA

# Evli cütlüklər niyə boşanır?

**Bu ilin ilk üç ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 10334 nikah və 3704 boşanma halı qeydə alınıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 4,2, boşanmaların sayı isə 1,5 olub. Bəs, bu statistikalar nə kimi məna daşıyır? Evli cütlüklər niyə boşanır?**

Boşanmaların azaldılması arzu edilirsə, səbəblərə diqqət yetirmək lazımdır. Boşanma səbəbləri təxminən belə sadalana bilər: Məsuliyyətsizlik və laqeydlik, iqtisadi problemlər, xəyanət, həyat yoldaşlarının bir-birinin ailələrinə qarşı davranışı, sui-istifadə və zorakılıq, cinsi problemlər, ünsiyyət qura bilməmək, alkoqol, qumar, narkotik kimi pis vərdişlər, uşağın təhsili ilə bağlı həyat yoldaşının mübahisələri.

Ancaq onları bu cür sadalamaq kifayət deyil, problemlərin aradan qaldırılması üçün səy göstərilməlidir. Məsələn, ailə terapiyası sığorta ilə əhatə olunmalıdır. Ailə qurmazdan əvvəl hər bir cütlük ailə terapiyasına aparılmalı və evliliyin uşaq oyunu olmadığı izah edilməlidir. Bəlkə o zaman boşanmaların sayının artması müəyyən qədər azaldıla bilər.

Ailə fərdin mənəvi və ictimai varlığında ilk nüvələrin atıldığı və formalaşdığı vahiddir. Həyat boyu fərdi inkişafa ən güclü təsir göstərən sosial vahid ailədir. Sevgi və etibarın nə demək olduğu ailədə öyrənilir. İlkin dəyər mühakimələri ailədən alınır.

Ancaq hər bir qurum kimi evlilik də zaman-zaman qüsurları olan bir qurumdur. Boşanma isə çətin, lakin bəzən məcburi bir qərar ola bilər. Hər bir ailə və cütlük boşanma qərarından əvvəl və sonrasında müəyyən proseslərdən keçir.

BOŞANMADAN ƏVVƏL: Emosional olaraq uzaqlaşdığınız və bəzi şeylərin artıq əvvəlki kimi olmadığı dövrdür. Evdə müzakirələr artır və paylaşma əhəmiyyətli dərəcədə azalır. Həyat yoldaşlarından biri və ya hər ikisi xitam qərarı haqqında düşünməyə başlamışdır.

BOŞANMA ZAMANI: Həyat yoldaşlarından biri bu prosesdə daha qətiyyətli və daha güclü olarkən, digər həyat yoldaşı özünü gücsüz, çarəsiz, tənha, kədərli, viran, depressiya və qəzəbli hiss edə bilər.

Ailənin digər üzvlərinin boşanma ilə bağlı məlumatı olacaq. Ailələrin cütlüyün qərarlarına müdaxilə etməmələri, fikirlərini bildirməmələri daha sağlam olar. Uşaqlar bu müddət ərzində yaşadıqları narahatlıqlardan təsəlli edilməlidir.

BOŞANMADAN SONRA: Həyata yeni bir başlanğıc etmək vaxtıdır. Cütlüklərdən bəziləri buna nail ola bilər, bəziləri isə bu prosesdən daha çox yorula bilər. Bu prosesi qəbul etməmək, peşmançılıq hissi, gələcəklə bağlı narahatlıqlar, nə edəcəyini bilməmək kimi hisslər ola bilər. Gələcəklə bağlı planlar qurmaq, həyatdan və əlaqələrdən yeni şeylər gözləmək, bunlar üçün səy göstərmək insanın artıq sağlam olduğunun göstəricisidir.

BOŞANMADAN SONRA UŞAQLAR: Həyat yoldaşı roluna xitam verilən şəxslər "ana və ata" rollarını ciddi şəkildə yerinə yetirməyə davam etməlidirlər. Boşanmanın heç bir mərhələsində yaşanan hisslər uşaqlara əks olunmamalıdır.

"Artıq eyni evdə yaşamırıq, amma ananız və atanız olaraq yenidən birlikdə olacağıq" mesajı TƏCRÜBƏ tərəfindən verilməlidir. Boşanma prosesini sağlam şəkildə idarə edə bilməyən cütlüklərdə uşaqlarda psixoloji çətinliklərin olması adi haldır. Bəzi cütlüklər öz həyatlarını bir kənara atıb evliliyə davam etməyi düşünə bilərlər. Araşdırmalar göstərdi ki, yalnız uşaqlar üçün bir yerdə qalmaq çox vaxt nəticə vermir. Bəzən birlikdə qalmaq uşaqlara boşanmaqdan daha çox zərər verə bilər. SİA məsələ ilə bağlı araşdırma apararaq sosioloq və psixoloqların fikirlərini öyrənib.

<u>**Psixoloq Zeynəb Eyyubova məsələnin psixoloji yanlarına toxunaraq öz fikirlərini bu cür qeyd edib:**</u> "Bu gün ən çox səhifəmizə gələn və bizə müraciət edən xanımlarımızın bir sualını müzakirə etmək istəyirəm. Sual odur ki, övlad dünyaya gətirdim, 9 ay əziyyət çəkdim. Bilirsiniz ki, hamiləliyin çətin tərəfləri də var və övladımı dünyaya gətirəndən sonra "sağ ol", "təşəkkür" yerinə bir tənqid atəşinə tutuldum, evdə hər şey pisdir, xoşbəxt deyilik, hər gün davadır. Övlad dünyaya gələndə daha çox bir mehriban ailə olmaq yerinə bizdə hər şey daha problemlidir. Birinci bunun səbəbi siz övladı valideyn olmaq üçün dünyaya gətirirsiniz, amma övlad sizin yaşıl kartınız deyil ki, o sizi xoşbəxt etməlidir. Siz özünüz şəxsi xoşbəxt olmalısınız.



Azərbaycan bütün dünyanın yeniliklərinə qoşulur. Bütün dünyada, seriallarda,



bloggerlərdə nə görürsə edir. Amma uşaqla bağlı olan heç bir şeyi bizim analarımız etmir. Bu nədir? Uşaq dünyaya gələndən 3-5 yaşına qədər ata ilə ananın yanında yatır, halbuki sizin baxdığınız o seriallarda uşağa balaca bir otaq da olsa düzəldirlər. Bunu mən deyən kimi bilirəm hamınız məni tənqid atəşinə tutacaqsınız ki, "yer var, otaq var, hara aparım, özümüz 50 nəfər bir evə sığmışıq". Balaca otağınızda bir pərdə yeri olsa karniz vurun, pərdə tutun. Seriallardan hər şeyi öyrənirsinizsə, bu dəfə bunu da öyrənin.

İkincisi, uşağımız 4 ay gecə-gündüz yatmadı. Uşağınız normal uşaqdırsa, hansısa bir travmayla, sindromla, patoloji halla dünyaya gəlməyibsə niyə sizin övladınız 4 ay gecə-gündüz yatmır? Hanı sizin pediatrınız, hanı sizin nevroloqunuz, hanı sizin psixoloqunuz? Niyə övlad dünyaya gələn kimi ailənizə bir bomba atılır. Bir övladın məsuliyyətini ana təkbaşına öz üzərinə götürməlidir?

Burada da atalar məni tənqid atəşinə tutacaq. Əziz və özəl atalar, bu xanım bu övladı tək özü üçün dünyaya gətirməyib. Sabah uğurlu ailə, şəxs olanda "mənim oğlum", "mənim qızım" deyəcəksiniz. Niyə bu gün onun məsuliyyətinə siz də qarışmırsınız? Niyə xanımınıza bu barədə kömək etmirsiniz? O uşağın valideynləri var, tək anası yoxdur. Təktərəfli mübarizə, təktərəfli əziyyət sonda o tərəfin məğlub olmasına və ya ruhdan düşməsinə səbəb olar. Hamiləlik dövründən uşaq haqqında bütün məlumatları alın. Normalda uşaq necə olmalıdır, normalda uşağa necə baxılmalıdır.

Hamiləlik başlayan dövrdən cinsi həyat niyə ləğv olunur? Uşaq dünyaya gəldi aylarla ailələrdə münasibət olmur və bu xəyanətlə sonlanır. Qadınları da başa düşürəm.



Sual verirlər ki, "kişilərdə bir problem olsa, biz xəyanət edəcəyikmi?" Yox etməyəcəksiniz. Amma hərənin ruhu başqadır. Niyə sizin evdəki uşaq zonanız, cinsi zonanız, başqa həyatınız, gəzməyiniz, qohumlarla rabitəniz tənzimlənmir ki, tərəflərdə daim narahatlıq olur?!".

<u>**Sosioloq Rəşad Əsgərov isə fikirlərini bu cür ifadə edib:**</u> "Son illərin statistikasına əsasən, bütün dünyada olduğu kimi, Azərbaycanda da boşanmaların faiz etibarilə artması prosesi daha çox özünü göstərir. Bu proses pandemiya dövründə daha geniş vüsət alıb. Xüsusilə də aşağı yaşlı nikaha girmiş insanlar arasındakı boşanmalar əvvəlki illərdəki kimi yenə də artım tempi ilə gedir. Hər 4-5 nikahda bir nəfər boşanma daha çox özünü göstərir. Bu faizin bu formada artması xüsusilə də qanunvericilikdə və yaxud da məhkəmələrdə boşanma prosesinin çətinləşdirilməsi, uzadılması məsələsini gündəmə gətirir. Bu prosesin çətinləşdirilməsi bəlkə də insanların müəyyən qədər vaxt itirmək baxımından fikirlərini dəyişməsi və yaxud da ki, bu boşanma aktından imtina etməyə gətirib çıxara bilər.



İkinci bir tərəfdən ailə institutu ilə bağlı müəyyən məsələlər və islahatlar aparılmalıdır. Ailələrin həm maddi, həm sosial-mənəvi, həm hüquqi cəhətdən maarifləndirilməsi, ailədaxili problemlərin araşdırılmasında və yaxud da ailədaxili problemlərin aradan qaldırılmasında cəmiyyətdə olan müxtəlif institutlar, icmalar, təşkilatlar və dövlətin müvafiq bu olaraq icra strukturundakı müvafiq bu sahəyə baxan qurumlar müəyyən qədər yeni yanaşmalar təqdim etməlidirlər ki, bu boşanmaların faizi azalsın. Əgər bu templə, bu ardıcıllıqla proses baş verərsə onda cəmiyyətimizdə natamam ailələrin sayı çoxalacaq, valideynsiz və yaxud da ki, valideyndən məhrum olmuş uşaqların sosial müəssisələrə yerləşdirilməsi prosesi artacaq. Bu isə cəmiyyətin ümumi görünüşünə, cəmiyyətin ümumi inkişafına mənfi təsir göstərəcək. Bunun üçün yaxşı olardı ki, müxtəlif KİV-lər, televiziya kanalları, mətbuat bu sahədə xüsusilə də ailə dəyərlərinin toxunulmazlığı, qorunması, ailələrin sağlam formalaşması istiqamətində müəyyən maarifləndirici verilişlər, roliklər artırılsın, cəmiyyətdə nümunəvi ailələrin reklamının tez-tez televiziyalarda, kütləvi informasiya vasitələrində verilməsi onların bu nümunəvi ailə formulunun müəyyən qədər təşviq olunması gənclər arasında ümumiyyətlə boşanmağa meylli olan ailələr arasında və yaxud da bu prosesə qoşulmuş ailələr arasında müəyyən qədər yanaşmanın dəyişilməsinə gətirib çıxara bilər. Bunun da nəticəsində bu boşanmaya getmiş ailələr, məhkəməyə boşanmaq üçün müraciət etmiş ailələrin sayında azalma ola bilər və bu boşanma faizinin ən yuxarı həddə artmasının əsas səbəblərindən biri də nikaha girənlərin azlığı və eyni zamanda, boşanmaların çoxalması hətta dördün beşə, beşin birə və yaxud da dördün birə nisbətində artmasına gətirib çıxarmışdır.

Biz ümid edirik ki, pandemiya bitdikdən sonra nikaha girənlərin sayında artımın çoxalması boşanma faizinin dinamikasının aşağı düşməsi müəyyən qədər cəmiyyətdə əvvəlki balansın qorunmasına və bu sahədə ailə institutunun daha da möhkəm olmasına şərait yarada bilər".

***Ayşən Vəli***

# Xalqımız şəhidlərimizin xatirəsini hər zaman uca tutacaq!

## Qubada qəhrəman şəhidin əziz xatirəsi ehtiramla anılıb





YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov və partiya fəalları tərəfindən torpaqlarımızın azadlığı uğrunda canından keçərək, şəhadətə yüksəlmiş Quba rayonunun Əlibəyqışlaq kəndindən olan qəhrəman vətən oğlu Əhmədov Rəvan Yafət oğlunun ildönümü ilə əlaqədar ailəsi və Əlibəyqışlaq kənd qəbiristanlığında məzarı ziyarət olunub, əziz xatirəsi ehtiramla anılıb. Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb. Rəvan Əhmədov 24 oktyabrdan xüsusi təyinatlı kimi Şuşanın azadlığı uğrunda gedən döyüşlərə qatılır. Şuşa uğrunda döyüşlərdə yaralı komandirini xilas edir və bütöv bir taboru mühasirədən çıxarır. Lakin Qələbənin bir addımlığında - noyabr ayının 7-də hərbi əməliyyat zamanı düşmən snayperindən açılan atəş nəticəsində şəhadətə qovuşmuşdur. Əhmədov Rəvan Yafət oğlu şəhadətindən sonra Cənab Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycan dövləti şəhidlərimizin xatirəsini həmişə uca tutur. Şəhidlərimiz Vətənimizin işğaldan azad olunmuş torpaqları uğrunda öz qanından, canından keçərək Şəhidlik zirvəsinə ucalıblar. Azərbaycanın mərd oğulları Şəhidlərimiz, Qazilərimiz bizim qürur mənbəyimizdir. YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov şəhid ailəsinin problemləri ilə maraqlanıb və ailəsinə səbr diləyib.

*Nəzakət ƏLƏDDİNQIZI*



## Samuxda şəhidin ildönümü qeyd olunub



44 günlük Vətən müharibəsində Şəhidlik zirvəsinə yüksəlmiş igid oğullarımızın yoxluğundan artıq 1 il ötür. Samux rayon icra hakimiyyəti başçısı Alı Qocayev, Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatının sədri Gündüz Bayramov, qazilər, şəhidin doğmaları və ictimaiyyət nümayəndələri torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən 2-ci Qarabağ müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalan Ziyadlı kəndindən olan Abdullayev Qəzənfər Nəcəf oğlunun məzarını şəhidimizin ildönümündə ziyarət ediblər. Mərasimdə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həmin müharibədə qazanılan şanlı Qələbədə Abdullayev Qəzənfərin timsalında bütün Samux şəhidlərinin şücaətindən danışılıb. Daha sonra tədbir iştirakçıları igid Vətən oğlunun valideynlərinə və ailə üzvlərinə ailələrinə səbir diləyib, əziz xatirələrini ehtiramla yad ediblər.

Şəhidin ailə üzvləri hər zaman dövlət qayğısı ilə əhatə olunduqlarına görə razılıqlarını ifadə edib, ölkə Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

*İlham*

## Qax rayonunda şəhid Sahib Musayevin xatirəsi anılıb








YAP Qax rayon təşkilatının fəalları, rayon icra hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, şəhidin oxuduğu məktəbin kollektivi və rayon ictimaiyyətinin nümayəndələri Vətən müharibəsində qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin giziri Qax rayonu Şotavar kənd sakini şəhid Musayev Sahib Musa oğlunun şəhadətinin ildönümü ilə əlaqədar məzarını ziyarət etmiş, məzarı üzərinə gül-çiçək dəstələri düzərək, əziz xatirəsini ehtiramla yad etmişlər. Daha sonra partiya fəalları şəhidimizin ailəsinə baş çəkərək, ailə üzvlərinə dərin hüznlə başsağlığı veriblər. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

*Zümrüd*

## Oğuzda Vətən Müharibəsi Qəhrəmanı Nail İbrahimlinin anım mərasimi keçirilib






Vətən müharibəsi zamanı şəhadətlik zirvəsinə ucalan şəhidimiz Oğuz rayonunun Xaçmaz kənd sakini, Vətən Müharibəsi Qəhrəmanı İbrahimli Nail Nəriman oğlunun torpağa tapşırılmasından bir il ötür. Anım mərasimi qəhrəmanımızın evində və uyuduğu Xaçmaz kənd Şəhidlər Xiyabanında keçirilib. Mərasimdə Oğuz RİH-in başçısı, YAP Oğuz rayon təşkilatının əməkdaşları, hüquq-mühafizə orqanlarının rəhbərləri, Dövlət Sərhəd Xidməti komandanlığının ali hərbi rütbəli zabiti və şəxsi heyəti rayon ictimaiyyəti, şəhid ailələri, iştirak ediblər. Ziyarətçilər şəhidimizin məzarını ziyarət edərək, onun əziz xatirəsini anıblar və ruhuna dualar oxunub. Sərhəd Qoşunlarının kiçik giziri, Vətən Müharibəsi Qəhrəmanı İbrahimli Nail Nəriman oğlunun döyüş yolu Murovdağ, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın və Şuşadan keçib. Nail İbrahimli 8 noyabr tarixində Şuşa şəhəri istiqamətində tapşırığı yerinə yetirərkən şəhid olmuşdur. 12 noyabr tarixində Oğuz rayonunun Xaçmaz kəndində yerləşən Şəhidlər Xiyabanında dəfn edilmişdir.

İbrahimli Nail Nəriman oğlu Prezident İlham Əliyevin müvafiq sərəncamları əsasında ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb və "Vətən uğrunda" , "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Torpaqlarımızın azadlığı uğrunda canından keçən Şəhidlərimizə Allah rəhmət eləsin.

*Z. BAYRAMOVA*

SİYASİ RAKURS

# Düşmən yenidən it kimi qovulmaq istəmirsə...



Şuşada baş vermiş məlum təxribatların ardınca və 44 günlük müharibədə aldıqları ağır, sarsıdıcı məğlubiyyətinə rəğmən düşmənin hələ də revanş hissindən kənarlaşa bilməməsi onu növbəti biabırçı məğlubiyyətlərə doğru sürükləyir. Baxmayaraq ki, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə rəsmi Bakının sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı prosesin başlanmasına hazır olması, sülh sazişinin imzalanması ilə bağlı bəyanatlarını səsləndirsə də, Ermənistan hələ də həmin prosesi müxtəlif vasitələrlə uzatmağa cəhdlər göstərir. Lakin həmin cəhdlərin iflasa uğraması artıq danılmaz faktlarla sübuta yetirilməkdədir. Daha dəqiq desək, törədilən hər təxribat cəhdi İrəvanın rüsvayçılığı ilə nəticəsini tapır. Bu gün istər Xankəndidə, istərsə də İrəvanda Azərbaycanın ərazi bütövlüyünə kəc baxanların aqibətlərinin nə ilə bitməsini isə artıq izah eləməyə də ehtiyac qalmır. O cümlədən, 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli bəyanatın Ermənistan tərəfindən realizə edilməməsi Azərbaycanın irəli sürdüyü şərtlərini haqlı olaraq digər mümkün mexanizmlərlə həyata keçirməsinə kifayət qədər şərait və zəmin yaradır. Daha doğrusu, Ermənistanın hər cür təxribatlarına rəğmən Azərbaycan öz sərhədlərində möhkəmlənməkdə və sərhədlərini qorumaqda, bəyanatdakı bəndlərin reallaşdırılmasında israrlı olduğunu əməli qaydada nümayiş etdirir və nəticələrini də əldə edir.

## Gorus-Qafan yolu düşmənə dərs olmadımı?

SİA xəbər verir ki, artıq Ermənistan mediası bu barədə həyəcan siqnalları verir, Azərbaycanın qarşısındakı acizliklərini öz reportajları ilə isbatlayır. Misal üçün, Ermənistan mediasının hazırladığı reportajda bildirilir ki, Çakaten kəndi Gorus-Qafan yolunun üzərində yerləşir və bəlli olduğu kimi, ötən ilin dekabrından etibarən həmin yolun bir hissəsi Azərbaycanın nəzarətinə keçib. Bir neçə gün əvvəl isə Azərbaycan tərəfi yolun Qubadlının Eyvazlı və Çayzəmi kəndləri arasından keçən hissəsində gömrük-sərhəd nəzarəti tətbiq edib, nəticədə Ermənistan vətəndaşları artıq bu yoldan istifadə edə bilmirlər və Tatev kəndindən keçən alternativ, eləcə də, hələ hazır olmayan və yağışlı-qarlı havalarda keçilməz, təhlükəli dağ yoluna doğru istiqamətləniblər. O cümlədən, Ermənistana yük daşıyan İran TIR-larının bir qismi bu yoldan istifadə edir və tez-tez qəzalar baş verir, tıxaclar yaranır, ərazi keçilməz səddə çevrilir. Onu da qeyd etmək yerinə düşərdi ki, Gorus-Qafan yolu eyni zamanda, qismən Zəngilan rayonu ərazisindən keçir və Çakaten kəndinin sakinləri Qafana getmək üçün bu yoldan istifadə edirlər.








**Bu gün istər Xankəndidə, istərsə də İrəvanda Azərbaycanın ərazi bütövlüyünə kəc baxanların aqibətlərinin nə ilə bitməsini isə artıq izah eləməyə də ehtiyac qalmır**

## Ermənilərin yolları 100 kilometr uzanır və...

Kəndin administrasiyasının keçmiş rəhbəri Ara Abramyan azərbaycanlıların yolun üzərində dayaq məntəqəsi qurduğunu təkzib etməyib. "Onlar nəsə qazırlar, kran gətiriblər və hansısa işləri yerinə yetirirlər, amma bilmirəm ki, məhz nə edirlər", deyən Abramyan qeyd edib ki, Azərbaycan tərəfi Çakatendən Qafana aparan yeganə yolun üstündə vaqon yerləşdiriblər və əgər onlar yolu bağlasalar kənd blokadada qalacaq.

Zəngəzurun ermənilərin hazırda Nerkin Hand adlandırdıqları kəndinin icma rəhbəri Xaçatur Baqdasaryan da Azərbaycan hərbçilərinin Çakaten-Qafan yolunda olduqlarını təsdiq edib. Onun sözlərinə görə, azərbaycanlılar gün ərzində kəndin 3-4 kilometrliyində intensiv iş görürlər. Onun sözlərinə görə, bu işlər gömrük məntəqəsinin qurulması üçündür. "Onlar ağacları kəsiblər, yolu təmizləyiblər. Yolda mən bir-iki azərbaycanlı gördüm, amma heç kim bizi dayandırmadı", deyə o bildirib.

Baqdasaryan deyib ki, əgər yol bağlansa, onun həmkəndlilərinin də vilayət boyu hərəkəti çətinləşəcək. Kənd sakinləri Mehridən keçib gedə bilərlər, amma bu yol 100 kilometr daha uzundur. Alternativ yol isə indi keçilməzdir, bu yolla ancaq CİP-lər gedə bilər, o da çətinliklə.

## Ermənistan öz oyunbazlıqlarını davam edərsə, bu və ya digər şəkildə təxribatlarını törədərsə, daha sərt cavab alacaq

Xatırladaq ki, Çakaten kəndi Nerkin Hand kəndi ilə Qafan arasında yerləşir, hər iki kəndi Qafanla indi Azərbaycanın nəzarətində olan yol birləşdirir. Azərbaycan tərəfi ötən ilin dekabrından etibarən onun suveren ərazilərindən keçən Gorus-Qafan yolu ilə Ermənistan vətəndaşlarının hərəkətinə imkan yaratmışdı. Lakin erməni tərəfi üçtərəfli bəyanatdakı şərtlərə zidd gedərək Zəngəzur dəhlizinin açılmasını müxtəlif bəhanələrlə ləngitməyə çalışdığı üçün Azərbaycan tərəfi öz suveren hüquqlarından istifadə etməklə yolun öz ərazisindən keçən hissəsində gömrük-sərhəd nəzarəti tətbiq etməyə qərar verib.

O cümlədən, qeyri-rəsmi məlumatlara görə, Zəngəzur istiqamətindən Naxçıvana tərəf nəzərdə tutulan ərazilərdə də qanunsuz postlar quran düşmən qoşunları həmin ərazilərdən çıxarılırlar və bütün bunlar daha bir faktı təsdiq edir ki, Ermənistan öz oyunbazlıqlarını davam edərsə, bu və ya digər şəkildə təxribatlarını törədərsə, daha sərt cavab alacaq. İrəvan unutmamalıdır ki, artıq Azərbaycanda "İti qovan" gəlməsi dillər əzbəridir və eyni zamanda, əməli şəkildə həyata keçirilir, o cümlədən, yenidən bənzər rüsvayçı, biabırçı hallarla rsatlaşmamaları üçün onlar ərazi iddialarını bir kənara qoyaraq normal danışıqlar məcrasına dönüb regionda sülhün bərqərar olması üçün addım ata bilərlər – hələ ki, gec deyil...

***Rövşən RƏSULOV***

# ƏNƏNƏVİ TƏBABƏT VƏ MÜASİR TƏBABƏT: HANSI HARADA KÖMƏYƏ GƏLİR

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

**Müasir kimyəvi təbabət daha çox inkişaf etsə də, bir çox xəstəliklərin öhdəsindən gələ bilmir. Ənənəvi təbii təbabət isə böyük hissəsi tarixin dərin qatlarında itirilsə də, istənilən xəstəliyi müalicə etmək gücündədir, hətta ağır xərçəng növlərini belə. Bir sıra ölkələrdə, məsələn, Çində, Hindistanda, Yaponiyada, İranda bir çox xəstəlikləri ənənəvi təbabətlə müalicə edirlər.**

Elə Azərbaycanda da xalq təbabəti çox qədim və zəngin ənənələrə malikdir. Lakin müasir təbabət də bəzi kimyəvi tərkibli dərmanlarla bir çox xəstəliyi müalicə edə bilir. Ona görə ki, həmin tərkibi təbii məhsullardan almaq çox çətindir. Fərq həm də ondadır ki, təbii dərmanlar bir yeri müalicə edərkən digər orqanlara zərər vurmur, lakin bu sözü müasir kimyəvi dərmanlar haqda demək mümkün deyil.

## Qurbağa zobu necə müalicə edir?

Bütün dünyada olduğu kimi, Azərbaycanda da qədimdən bəri təbii üsullarla müalicə metodları mövcud olub. Şərqin İbn Sina kimi dahi təbibi olub və onun öz dövründə müalicə edə bilmədiyi xəstəlik olmayıb. Təbiblər, loğmanlar insanın müxtəlif xəstəliklərini elə təbiətin öz gücü ilə - heyvanlar, həşaratlar, sürünənlər, bitkilər, faydalı qazıntılar, Günəş, su və s. ilə müalicə edib. Neftlə, vulkan palçığı ilə, duzla, duzlu su ilə müalicə yerləri ölkəmizdə də var. Amma təbii təbabətin də düzgün qaydaları var və onlara əməl olunmalıdır. Bunun üçün, hər ”yoldan keçəndən” yox, bu elmin bilicilərindən məsləhət almaq lazımdır.

Bizim coğrafiya üçün xarakterik olan xəstəliklər elə öz ölkəmizin təbii ehtiyatları, canlıları ilə müalicə edilir. Ölkəmizdə ən çox rastlanan xəstəliklərdən biri də zobdur. Bu, Azərbaycanda içməli suyun tərkibində yodun azlığı ilə bağlıdır. Zobun müalicəsi ilə bağlı qədim Çin təbabəti ölkəmizdə bəzi həkimlər tərəfindən tətbiq edilir.

Maraqlı burasıdır ki, zob qurbağa vasitəsilə də müalicə edilir. Çay qurbağası xəstənin boğazına qoyulur, 3 gün, hər gün 1 saat 30 dəqiqəlik müalicə proseduru tətbiq edilir. Qurbağa boğazdakı zobun zəhərini sorur. Zəli vasitəsilə bir çox xəstəlikləri müalicə edənlər də var. Həm də çox effektli şəkildə. Zəli bütün orqanizmi təmizləyir, immuniteti gücləndirir.

## Bədəninə 2600 iynə sancılarsa...

Təbabətdə maraq doğruran müalicə üsullarından biri də ölkəmizdə də tətbiq edilən akapunktr metodudur. Bu, çoxsaylı iynələrin bədənin müəyyən nöqtələrinə sancılmaqla olan müalicə üsuludur. Hippokrat çox istifadə etdiyi bu müalicə üsuluna ”insanın daxili həkimi” adını verib. Son vaxtlar akapunktr ilə müalicə metodu xeyli təkmilləşib. Bu müalicə üsulu onkoloji xəstəliklərdən başqa bütün xəstəliklərin müalicəsində istifadə edilir.

Təbiblər deyir ki, nevroloji xəstəliklər, üz sinirinin paret və nevritləri, osteaxondroz, onurğa yırtıqları, miqren və baş ağrıları, kişilərdə cinsi problemlər yarananda bu müalicə üsuluna müraciət etmək olar. Lakin bu müalicə metodu xeyirli olduğu qədər də zərər verə bilər. Belə ki, öz işini yaxşı bilməyən akapunktr həkimi iynələri təhlükəli yerlərə sancaraq bədənin iflic olmasına səbəb ola bilər. Qədimdə bədəndə iynə yerləşdiriləcək 1600 nöqtə vardı, lakin indi akapunktr iynələri 2600 nöqtəyə tətbiq edilir.






Akapunktr müalicəsinin bir şüarı var - metal müalicə etməyən xəstəliyi heç bir üsul müalicə edə bilməz.

## Zəli, ilan, delfin-sağlamlığın dostları

Bu gün dünyada psixoloji problem yaşayan kifayət qədər çox insan var. Amma son illər delfinlərin psixi problemlərə kömək etdiyi məlum olduqdan sonra psixoloqların işi azalıb. Bir çox Avropa ölkəsində psixi problemi olan insanlara delfinlərlə ünsiyyət məsləhət görülür, delfinlə üzmək, əylənmək insanı bütün psixotrop dərmanlardan daha yaxşı müalicə edir. Nevrozun müalicəsində təbiət qoynuna yaşamaq, meşədə gəzmək, heyvanlarla təmasda olmaq çox böyük effekt verir.

Ciddi fiziki və mənəvi yorğunluq duyan insanların ilanla müalicəsi barədə bilirdinizmi? Bir çox şərq ölkəsində zəhərsiz və ya zəhər dişi çıxarılmış ilanları çılpaq soyunmuş pasiyentin bədəninə buraxırlar. Pasiyent ilanlardan qorxmamalı, sakitliyini qorumalıdır. Əks halda ilanlar qəzəblənə və boğaza dolanaraq nəfəs almağa mane ola, hətta pasiyenti boğaraq öldürə bilərlər.

Qədim Çində, Hindistanda, Tibetdə istifadə edilən bir başqa tibbi üsul da zəlilər idi. Zəlilər dövrün həkimlərinin bir çox xəstəliyə səbəb olduğunu düşündükləri çirkli qanı çəkmək üçün istifadə edilirdi. Müasir tibbdə, zəlilərə rekonstraktif cərrahiyyədə, iltihablı yaralar, çiban, oynaq ağrıları, sonsuzluq, qan və qan dövranı problemləri, cinsi yolla yoluxan infeksiyalar, xroniki iltihab prosesləri, ürək qüsurları, ürəyin işemik ritmi, stenokardiya, maddələr mübadiləsinin pozuntusu, osteoxandroz, uroloji, ağ ciyər, qara ciyər, mədə-bağırsaq, cinsi sfera, ginekoloji, revmatizm, dəri və bir sıra digər xəstəliklər zamanı tətbiq edilir. Zəli yeganə vasitədir ki, hətta ölmüş sinir hüceyrələrini də bərpa edə bilir.



## Ac qalmaqla və qan verməklə müalicə

Ac qalmaqla bir çox xəstəlikləri müalicə etmək, qanı təmizləmək, bədəndən şlakları və toksinləri çıxarmaq, orqanizmə sanki yenidən güc vermək mümkündür. Məşhur alim Pol Breqqin bu üsulu elmi şəkildə öyrənib tətbiq etməsi ilə dünya nizamlı aclığın necə qüdrətli bir dərman olması həqiqətini bilmiş oldu. Dinlərdə bu, oruc formasında təsbiq olunub.

Qan alma müalicə üsulu da qədim Tibetdə daha çox yayılmışdı. Çin və hind təbiblərinin də çox müraciət etdiyi bu üsul vasitəsi ilə bədəndən bir qədər qan alınır və bununla bir çox xəstəliyin müalicə olunduğu hesab edilirdi. Tibb tarixində yüksək təzyiqli, qızdırma, baş ağrısı kimi şikayətləri olanların məhz qan alma yolu ilə müalicə edilməsi barədə məlumatlar var.

Qədim təbabətdə narkoz yox idi, dolayısı ilə xəstələrin əməliyyat zamanı ağrıkəsiciyə olan ehtiyacı təbii vasitələrlə qarşılanırdı. Bu ağrıkəsicilər iksirlər idi. İksirləri qədim dövrün narkozu da adlandırmaq olar. Əməliyyatlar əsnasında xüsusi iksiri içən xəstə dərin bir yuxuya dalaraq yatır, beləcə ağrı hiss etmədən əməliyyat edilirdi. Amma dozasından çox verilən narkozun xəstənin ölümünə səbəb olacağı kimi iksirlər də lazımı formada və uyğun dozada verilməzsə, xəstələrin ölümünə yol aça bilirdi.

Məlumat üçün qeyd edək ki, öd və böyrəklərdə olan daşların düşməsində də su müalicəsi effektlidir. Dağ çayında axının qarşısında dayanmaq, dəniz, hamam vannası böyrək daşını minimum ağrı ilə salmağa kömək edir.

## Ana südü kimyaterapiya əvəzi?

Dünyanı cənginə keçirmiş, ən təhlükəli xəstəlik hesab edilən xərçəng xəstəliyinə qarşı insanın ilk qidası, bəşəriyyətin möcüzəsi hesab edilən ana südünün qüdrətini bilirdinizmi? Xərçəngdən qurtulmaq üçün ən ağrılı yol hesab edilən kimyaterapiyada təhlükəli kimyəvi dərmanlardan istifadə edilir. Uzun müddət kimyaterapiyaya məruz qalan insanın dərisi yanır, bu isə ona dəhşətli ağrılar verir. Xərçəng xəstəsi olanlar kimyaterapiya müalicəsinin ana südü ilə edilə biləcəyi barədə məlumatlı deyillər.

Ana südünün xərçənglə mübarizə edə bilmə gücü 2009-cu ildə yeni ana olmuş qızının südünü içən bir atanın həyat hekayəti zamanı məlum olub. Belə ki, İsveçin Lund və Höteburg universitetlərindən olan alimlər qrupu xərçəng xəstəsi olan bir kişinin müalicəsində qeyri-ənənəvi yoldan istifadə etmək qərarına gəliblər. Xəstənin qızı yeni ana olmuşdu və o hər gün alimlər qrupunun tapşırığı ilə öz südünü sağaraq bir stəkana tökür, bunu xəstə atasına içirirdi. Möcüzə sayəsində xəstənin beynindəki xərçəngli şişlər getdikcə kiçilməyə başladı və nəticədə tamamilə yox oldu. Bu bir təcrübə möcüzəsi idi və ana südünün xərçəng hüceyrələrini öldürə biləcək qüvvədə olması da məhz o zaman məlum oldu.

Araşdırmaçı alimlər, ana südündə olan və ”Hamlet” adı verilən maddənin xərçəng hüceyrələrinin ölümünə gətirib çıxardığını kəşf etsə də, bu maddənin xərçəngli hüceyrələr üzərində necə təsir göstərdiyi tam olaraq aydın ola bilmədi. Qəribə olan odur ki, xərçəngi məhv etməsinə baxmayaraq sonralar bu müalicə üsulundan istifadə edilmədi. Kim bilir, bəlkə də dünyanın getdikcə xərçəng əsiri olması bəzi qüvvələrə sərf edir...

## Hər bitki bir dərman, hər dərman bir ömür

Təbii mirvari tozunun dəri xərçəngini yox etdiyini bilirdinizmi? Ənənəvi Çin təbabətində parçalanan mirvarilər əvvəl toz halına gətirilir, daha sonra bu toz sadə tərkibli təbii kremlə qarışdırılır və dəriyə tətbiq edilir. Mirvari tozu nəinki xərçəngi müalicə edir, o cümlədən dərini cavan saxlayır. Əsl mirvari istifadə edən qadınların boyun nahiyəsində qırışların yaranmaması da məhz bu səbəbdəndir.

Dövrümüzdə ən adi insan tərəfindən ev üsulu müalicə metodları istifadə edilməkdədir. Məsələn, yanıq yerinə kartof qabığı qoyulması, qızdırmanı salmaq üçün gicitkənlə, keçi piyi və sirkə ilə bədənin ovulması, ayaq altına spirt çəkilməsi, ilan zəhərinin təsirinin öldürülməsi üçün dişlənmiş bölgəyə sirkə ilə gicitkən şirəsinin qarışığının tökülməsi, babasilin müalicəsində keçi piyinin tətbiqi kimi bir çox türkəçarələr mövcuddur.

Keçmişdə taun, cüzam, vəba kimi xəstəliklər qədər təhlükəli hesab edilən, dövrümüzün də ən çox yoluxan xəstəliklərindən biri olan vərəm də limon, bal və sarımsağın qarışığından əmələ gələn xüsusi dərmanla müalicə edilirdi. Bu dərman nəinki vərəmi sağaldır, eləcə də bütün orqanizmin şlaklardan təmizlənməsinə kömək edir. Əgər bitki çaylarının da min bir faydasını bu yazımıza əlavə etsək o zaman təbii təbabətin qüdrətini daha yaxşı anlamış olarıq.

Ətrafda gördüyümüz təbii hər şey dərmandır, sadəcə, bilici əlində. Naşı əllərdə isə bu təhlükəlidir. Ona görə də, bütün hallarda, ağır xəstəliklərin müalicəsi üçün təbii müalicəni özbaşına etmək doğru deyil, bunun üçün xüsusi elmi kitablar və tibbi bioloji təhsili olan bilicilər var.

***Lalə Mehralı***

# Bu futbolçuya illik 18 milyon avroluq maaş təklif edildi



**Almaniyanın "Borussiya" klubu futbolçusu Erlinq Halandı daha bir mövsüm komandada saxlamaq istəyir. Buna görə, Dortmund təmsilçisi norveçli hücumçunun maaşını artıraraq, onu komandada saxlamaq niyyətindədir. Qeyd edək ki, məlumatı Almaniya mətbuatı yayıb.**

"Borussiya" Halanda illik 18 milyon avro maaş alacağı yeni sözləşmə təklif edib. Tərəflər arasında razılıq əldə olunsa, 21 yaşlı hücumçu komandanın ən çox qazanan oyunçusu olacaq. Halandın "Borussiya" ilə müqaviləsi 2024-cü ilin yayına qədərdir. O, bu mövsüm Dortmund klubunda 10 oyunda 13 qol vurub.

# Almanlar qocalanda daha rahat yaşamaq üçün daha çox ödəniş edirlər



**Almaniyada keçirilmiş son rəy sorğuları göstərib ki, ölkə əhalisinin yarısından bir qədər çox hissəsi ahıl şəxslər pensiyaya çıxandan sonra onlara uzun müddət qulluq göstərmək üçün məcburi sığorta fonduna daha yüksək məbləğ ödəməyə hazırdır.**

AZƏRTAC xəbər verir ki, tədqiqatçılar son rəy sorğularını təhlil edərək, ahıl vətəndaşlara qulluq barədə qanunvericilikdə islahat aparmaq zəruridir. Ahıl vətəndaşlara ictimai qayğının səviyyəsini öyrənən "Diakonie" qeyri-hökumət təşkilatının baş direktoru Mariya Loxeydenin fikrincə yeni federal hökumət bu sahədə dərhal islahatlar aparmalıdır. O deyib: "Pulsuz yaxşı qulluq göstərilmir. İnsanlar bunu bilirlər və daha çox ödəniş etməyə hazırdırlar.

Loxeyde vurğulayıb: "İnsanlar gözləyirlər ki, gələcəkdə onlara qulluq göstərilməsinin maliyyələşdirilməsi qocalıqda onlara yaxşı qulluq göstərilməsi şəklində əvəzini çıxacaq".

# Uşaqların palçıqda oynaması xeyirliymiş



**Uşaqlara immunitet sistemini gücləndirmək üçün açıq havada və palçıqda oynamağa icazə verilməlidir. "Science Advances" jurnalının məlumatına görə, Helsinki Universitetinin alimləri bununla bağlı uzunmüddətli araşdırmalardan sonra belə qənaətə gəliblər.**

Mütəxəssislər üç-beş yaşlı 75 uşağın iştirakı ilə bir sınaq keçiriblər. Bir qrup uşaq meşə çəmənliyi əlavə edilən oyun meydançalarında oynayıblar, həmçinin meşəyə gəzintiyə çıxarılıblar. Başqa bir qrup isə şəhərdə qalıb.

Araşdırmaya görə, meydançalarda oynayan uşaqların dərideki bakteriyaların müxtəlifliyi artıb ki, bu da immunitet sistemini gücləndirib. Bundan başqa, onların qan nümunələrində iltihab əleyhinə IL-10 zülalının miqdarı artıb. Alimlər uşaqların torpağın üst qatındakı mikroblarla təmasının önəmli olduğu qənaətinə gəliblər.

# 14 yaşlı qız özünü asdı



Cəlilabadda intihar hadisəsi baş verib. Hadisə axşam saatlarında rayonun Qarazəncir kəndində qeydə alınıb. İlkin məlumata görə, kənd sakini, 14 yaşlı qız özünü asaraq intihar edib. Hazırda onun şəxsiyyəti dəqiqləşdirilir. Hadisənin səbəbi hələlik məlum deyil. Faktla bağlı araşdırma aparılır.

# ŞOK: Şəkərli diabet gəncləri sürətlə ağuşuna alır..



Şəkərli diabet qanda qlükoza səviyyəsinin qalxması nəticəsində yaranır. Xəstəlik daha çox 35-40 yaş arasında olanlarda müşahidə edilir. Halsızlıq, başgicəllənmə, ağızda quruluq, mütəmadi susuzluq hissi xəstəliyin ilkin əlamətləridir. Hazırda dünyada 422 milyon nəfərdən çox əhali bu xəstəlikdən əziyyət çəkir. Düzgün müalicə aparılmadıqda şəkərli diabet insult, böyrək çatışmazlığı kimi xəstəliklərə səbəb olur.

Mərkəzi Gömrük Hospitalının terapevti Şəhla Mirzəzadə AZƏRTAC-a bildirib ki, son illərdə bu xəstəlik daha çox gənclər və uşaqlar arasında müşahidə olunmağa başlayıb. Şəkərli diabetin gənclər arasında yayılmasının əsas səbəbi həyat tərzi ilə əlaqədardır. Bədən kütlə indeksinin artması, artıq çəki, fiziki aktivliyin aşağı düşməsi, qeyri-sağlam qidalanma və xüsusilə zərərli vərdişlərdən istifadə şəkərli diabet yaranmasına rəvac verən səbəblərdir. Xüsusilə uşaqlar arasında diabetin müşahidə olunması qeyri-sağlam qida vərdişlərinin formalaşması ilə bağlıdır. Ona görə də valideynlər çalışmalıdırlar ki, uşaqları şəkərli və həddindən artıq zərərli qidalara yönəltməsinlər.

Düzgün qidalanma ilə yanaşı, idmanla mütəmadi məşğul olmağın da vacibliyini qeyd edən həkim deyib: "Təbii və sağlam qidalanmağa nəzarət etmək lazımdır. Fiziki aktivlik bu sahədə ən mühüm addımlardan biridir. Gün ərzində mütləq 5 min addım atılmalıdır. Digər vacib məqam yuxu rejiminin tamlığı, su qəbulu və bütün bunlarla yanaşı, zərərli vərdişlərdən, xüsusilə də tütünçəkmədən uzaq olmaqdır".

Ş.Mirzəzadə bildirib ki, xroniki xəstəliyi olan, yüksək təzyiq və şəkərli diabetdən əziyyət çəkənlər yeni növ koronavirusu (COVID-19) da ağır keçirirlər: "Həmin yanaşı xəstəliyin olması virusun gedişini ağırlaşdıra bilər. Bu, bir qədər də fərqli xüsusiyyət daşıyır. Tədqiqatlar göstərir ki, şəkərini nəzarət altında saxlayan diabet xəstələrində virusun gedişinə nəzarət etmək mümkündür. COVID-19-a yoluxmuş diabet xəstələri şəkərin səviyyəsinə nəzarət etməyi, dərmanların vaxtında qəbulunu diqqətdə saxlamalıdırlar".

Şəkərli diabetin yaranmasına genetik faktorlar, yüksək təzyiq və xolestrol, mədəaltı vəzi xəstəlikləri də səbəb olur. Qanda qlükozanın səviyyəsinə nəzarət və müalicə daimi xarakter daşıyır. Pəhriz təyin olunarkən xəstənin yaşı, cinsi, çəkisi, fiziki aktivliyi mütləq nəzərə alınmalıdır. Həkim nəzarəti altında xəstəliyin ağırlaşmasının qarşısını almaq mümkündür.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**